

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 30 (24.516)

8 avqust 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Naxçıvanın gələcəyinə göstərilən diqqət və qayğı



**Ulu Öndərin davamçısına böyük inam hissi ilə**

*“Mən bu torpaqda doğulmuşam, burada təhsil almışam, buradan həyata addımlamışam, daim bu torpaqla bağlı olmuşam. Bütün dövrlərdə bu doğma torpağıma xidmət etmək üçün əlimdən gələni etmişəm”,* – deyən Ulu Öndərimiz Heydər Əliyevin siyasi yolunu uğurla davam etdirən, müasir Azərbaycanın inkişafında misilsiz xidmətlər göstərən, ölkəmizi dünyanın aparıcı dövlətləri səviyyəsinə yüksəldən Prezident İlham Əliyev naxçıvanlılar üçün hər zaman Ulu Öndər qədər dəyərli və əzizdir. Elə buna görə də dövlət başçısının qədim diyara hər səfəri böyük sevgi və rəğbətlə qarşılanır. Ulu Öndərin *“Mən ona özüm qədər inanıram”* sözləri naxçıvanlıların Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətə olan inam və dəstəyində bu gündə öz təsdiqini tapır.

**Yaddaşlara həkk olunan səfərlər**

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına hər səfəri yerli sakinlər tərəfindən böyük rəğbətlə qarşılanıb. Dövlət başçısı 2004-2023-cü illər ərzində 16 dəfə Naxçıvan Muxtar Respublikasına səfər edib. Bu səfərlər zamanı Naxçıvanın sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malik olan çoxsaylı obyektlərin açılışı olub, Prezidentin tövsiyə və tapşırıqlarına uyğun olaraq yeni layihələrə başlanılıb.

2004-cü ildən etibarən Prezident İlham Əliyev Naxçıvana səfərləri çərçivəsində elm, təhsil, mədəniyyət, idman, səhiyyə, sosial təminat, energetika, meliorasiya, yol tikintisi, sahibkarlıq və hərbi quruculuq sahələrini əhatə edən 150-dən çox obyektin açılışında iştirak edib. Eyni zamanda region üçün mühüm əhəmiyyət kəsb edən İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimində iştirak edib, Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileylərində iştirak edərək qədim diyara verilən dəyəri bir daha nümayiş etdirib.

Səhifə ➡ 4

## Naxçıvan şəhərinə, Ordubad və Culfa rayonlarına yeni təyin olunmuş icra hakimiyyəti başçıları kollektivlərə təqdim ediliblər



Səhifə ➡ 6

## Zəngəzur dəhlizi üzərində gizli xəzinə Şərur



Səhifə ➡ 7

## Mən Cavidlər ocağının sönməyən məşəliyəm



Səhifə ➡ 9

## Qatqı maddəli qidaların insan orqanizminə təsiri



Səhifə ➡ 10

## “Qayıdış” konsepsiyası: *tarixi irsə sahiblik və gələcəyə böyük inamla*



Səhifə ➡ 11

## Doğru ixtisas seçimi uğurlu gələcəyin başlanğıcıdır



Səhifə ➡ 12

# Zəngəzur dəhlizi Orta Dəhlizin gücünü artırmaqla bərabər,
## Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına maneəsiz çıxışını təmin edəcək



**Azərbaycanın öz hərbi-siyasi gücü hesabına ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ölkəmizi regional çərçivələri aşaraq beynəlxalq münasibətlər sistemində söz sahibi olan nüfuzlu dövlətə çevirib. Bu gün rəsmi Bakı Cənubi Qafqazın lideri olmaqla yanaşı, Avrasiya məkanında yeni geosiyasi və geoiqtisadi reallıqların formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini keyfiyyətcə yeni mərhələyə – strateji müttəfiqlik səviyyəsinə yüksəltməsi xüsusi əhəmiyyət daşıyır.**

**Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri və keçirdiyi yüksək səviyyəli görüşlər iki ölkə arasında əməkdaşlığın inkişafında yeni mərhələnin əsasını qoymaqla yanaşı, Cənubi Qafqaz-Mərkəzi Asiya əlaqələrinin strateji məzmununu daha da zənginləşdirdi. Səfər çərçivəsində Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının III iclasının keçirilməsi və imzalanan mühüm sənədlər ikitərəfli münasibətlərin institusional əsaslarını daha da möhkəmləndirdi. Səfərin başlıca siyasi nəticələrindən biri isə iki ölkə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldilməsi oldu. Vurğulandığı kimi, Bakı və Bişkek bundan sonra da beynəlxalq platformalarda, iqtisadi və təhlükəsizlik sahələrində bir-birinə qətiyyətli dəstəyini davam etdirəcək. Dövlətimizin başçısının səfər zamanı Qırğızıstanın ali dövlət mükafatı ilə təltif edilməsi ölkələr arasında yüksək siyasi etimadın və qarşılıqlı hörmətin bariz ifadəsidir.**

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əməkdaşlığı yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmır. Ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri platformasında fəal iştirakı rəsmi Bakının bu coğrafiyada artan nüfuzunu bir daha təsdiqləyir. Nəqliyyat-logistika imkanları, ortaq tarixi-mədəni dəyərlər və uzaqgörən xarici siyasət sayəsində Azərbaycan Mərkəzi Asiyanın etibarlı strateji tərəfdaşına çevrilib. Türk Dövlətləri Təşkilatı çərçivəsində dərinləşən əməkdaşlıq, eləcə də Çolpon-Atada imzalanan müttəfiqlik sazişləri Avrasiya məkanında yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasını formalaşdırır.

Bu strateji müttəfiqlik yalnız siyasi dialoq və nəqliyyat sahəsini əhatə etmir, eyni zamanda iqtisadi, investisiya və humanitar əməkdaşlığın inkişafına da mühüm töhfə verir. Nizamnamə kapitalı 200 milyon dollara çatdırılan Azərbaycan-Qırğız İnvestisiya Fondu birgə layihələrin həyata keçirilməsi üçün geniş imkanlar açır. Bununla yanaşı, Bişkekdə Azərbaycan-Qırğızıstan Dostluq Parkının salınması, Ağdamda Manas adına məktəbin tikilməsi və Bakıda Çingiz Aytmatovun abidəsinin ucaldılması xalqlarımız arasında mövcud olan tarixi-mədəni bağlılığın və qardaşlıq münasibətlərinin daha da möhkəmləndiyini göstərir.

Bakı ilə Bişkek arasında dərinləşən münasibətlər, bütövlükdə, Türk dünyasının coğrafi və iqtisadi inteqrasiyasına xidmət edir. İki ölkə liderinin qarşılıqlı etimadı və siyasi iradəsi Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında sarsılmaz strateji ox yaradır ki, bu da Avrasiya regionunda güc balansını sülhün və dayanıqlı inkişafın lehinə dəyişir.

Azərbaycan və Qırğızıstan arasında mövcud olan həmrəylik beynəlxalq müstəvidə də özünü aydın şəkildə göstərir. BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq platformalarda ölkələrimizin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və milli maraqlarına verdiyi ardıcıl dəstək qarşılıqlı etimada əsaslanan münasibətlərin mühüm göstəricisidir. Dünyada geosiyasi risklərin və ziddiyyətlərin artdığı bir dövrdə Azərbaycan və Qırğızıstanın ortaq mövqedən çıxış etməsi Avrasiya regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verir.

Bu gün Azərbaycan və Mərkəzi Asiya dövlətləri bərpa olunan enerji potensialının birləşdirilməsi istiqamətində tarixi addımlar atırlar. Mərkəzi Asiyadan Avropaya uzanacaq "yaşıl dəhliz"lə qlobal enerji xəritəsində yeni pəncərə açır.

Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin inteqrasiyasını daha da möhkəmləndirən əsas amillərdən biri Avrasiyanın nəqliyyat xəritəsini yenidən formalaşdıran Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsidir. Müasir geosiyasi şəraitdə Çindən və Mərkəzi Asiyadan Avropaya yüklərin daşınması üçün ən təhlükəsiz, qısa və səmərəli marşrut hesab olunan Orta Dəhlizin ötürücülük qabiliyyətinin artırılması həm Azərbaycanın, həm də digər türk dövlətlərinin əsas prioritetlərindəndir.

Bu nəqliyyat arteriyasının ən mühüm strateji həlqəsini isə Zəngəzur dəhlizi təşkil edir. Orta Dəhliz və Zəngəzur dəhlizi yalnız nəqliyyat infrastrukturu layihələri deyil, həm də Avrasiyanın gələcək iqtisadi və geosiyasi arxitekturasını formalaşdıran strateji təşəbbüslərdir. Təxminən, 15 milyon ton ötürmə potensialına malik olacaq Zəngəzur dəhlizi yaxın perspektivdə Orta Dəhlizin əsas seqmentlərindən birinə çevrilərək Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirəcək, eyni zamanda region ölkələrinin tranzit və ticarət imkanlarını genişləndirəcək.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi Orta Dəhlizin səmərəliliyini artırmaqla yanaşı, Mərkəzi Asiya ölkələrinin Azərbaycan üzərindən Türkiyə və Avropa bazarlarına birbaşa və maneəsiz çıxışını təmin edəcək. Bu dəhliz Naxçıvan Muxtar Respublikasını ölkənin əsas hissəsi ilə birbaşa avtomobil və dəmir yolu xətləri vasitəsilə birləşdirəcək ki, bu da muxtar respublikanın regionun mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə əlverişli şərait yaradacaq.

Bu isə, öz növbəsində, turizm və ticarət əlaqələrinin şaxələnməsinə, yerli sənayenin ixrac imkanlarının genişlənməsinə zəmin yaradacaq. Dəhliz Naxçıvanda istehsal edilən məhsulların dünya bazarlarına çıxışını da asanlaşdıracaq. Bölgənin zəngin təbii ehtiyatlarının səmərəli istismarı və onların xarici ölkələrə ixracı məhz Zəngəzur dəhlizinin işə düşməsi ilə birbaşa bağlıdır.

Mərkəzi Asiya ilə formalaşdırılan möhkəm tərəfdaşlıq, Orta Dəhliz və onun əsas həlqəsi olan Zəngəzur dəhlizi kimi irimiqyaslı infrastruktur layihələri Avrasiya məkanında uzunmüddətli sülhün, sabitliyin və iqtisadi inkişafın möhkəmlənməsinə xidmət edir. Bu layihələr təkcə region ölkələri arasında nəqliyyat əlaqələrini genişləndirmir, həm də qarşılıqlı iqtisadi asılılığı artırmaqla yeni əməkdaşlıq imkanları yaradır.



Azərbaycan milli maraqlarını qətiyyətlə qorumaqla yanaşı, təşəbbüskarı olduğu beynəlxalq layihələr vasitəsilə regional əməkdaşlığın dərinləşməsinə və Avrasiyada dayanıqlı inteqrasiya modelinin formalaşmasına mühüm töhfə verir. Zəngəzur dəhlizinin reallaşması isə Orta Dəhlizin strateji əhəmiyyətini daha da artıraraq Azərbaycanın Şərqlə Qərbi birləşdirən əsas nəqliyyat və logistika mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirəcək.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini***

# Çolpon-Ata görüşü:

## Azərbaycan-Mərkəzi Asiya tərəfdaşlığında strateji inteqrasiyanın perspektivləri




**Son illərdə qlobal geosiyasi və geoiqtisadi proseslər fonunda Mərkəzi Asiya beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevrilib. Enerji resursları, nəqliyyat marşrutları və tranzit imkanları baxımından strateji əhəmiyyətə malik olan bu regionla əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir. Tarixi, mədəni və siyasi bağlılığa söykənən münasibətlər bu gün iqtisadi inteqrasiya, nəqliyyat-logistika layihələri, investisiya əməkdaşlığı və ortaq təhlükəsizlik maraqları ilə daha da zənginləşir. Bu baxımdan, iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü regional əməkdaşlığın gələcək inkişaf perspektivlərini müəyyənləşdirən mühüm siyasi platforma kimi diqqət çəkir.**

**Çolpon-Atada keçirilən görüş regionda formalaşan yeni əməkdaşlıq modelinin mühüm mərhələsi kimi qiymətləndirilə bilər. Azərbaycanın bu platformada tamhüquqlu üzv qismində təmsil olunması ölkəmizin Mərkəzi Asiya ilə münasibətlərinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini və əməkdaşlığın institusional əsaslar üzərində inkişaf etdiyini göstərir.**

Son illərdə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələri nəzərəçarpacaq dərəcədə intensivləşib. Qarşılıqlı dövlət səfərlərinin artması, hökumətlərarası komissiyaların fəaliyyətinin genişlənməsi, iqtisadi və humanitar layihələrin sayının çoxalması region dövlətləri arasında yüksək siyasi etimadın formalaşdığını təsdiqləyir. Bu proses Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşməsi ilə paralel inkişaf edərək ortaq maraqların daha səmərəli və əlaqələndirilmiş şəkildə həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Azərbaycanın geostrateji mövqeyi Mərkəzi Asiya üçün xüsusi əhəmiyyət daşıyır. Xəzər dənizinin qərb sahilində yerləşən ölkə Şərqlə Qərbi birləşdirən Orta Dəhlizin əsas həlqələrindən biridir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Ələt Azad İqtisadi Zonası Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Reallaşdırılması nəzərdə tutulan Zəngəzur dəhlizi isə regionun nəqliyyat xəritəsini yeni mərhələyə daşıyacaq strateji layihələrdən biri hesab olunur. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə yanaşı, Türk dünyasının nəqliyyat əlaqələrinin möhkəmlənməsinə, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında yükdaşımaların daha sürətli və səmərəli həyata keçirilməsinə əlavə imkanlar yaradacaq. Son illərdə yükdaşımaların həcminin artması Orta Dəhlizin, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Zəngəzur dəhlizinin beynəlxalq əhəmiyyətinin getdikcə yüksəldiyini göstərir.



Bu baxımdan, Prezident İlham Əliyevin Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə səsləndirdiyi fikirlər Bakının regionla əməkdaşlığa strateji yanaşmasını bir daha nümayiş etdirir. Dövlət başçısının vurğuladığı kimi, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Qarşılıqlı səfərlərin intensivliyi, siyasi dialoqun davamlı xarakter alması və çoxtərəfli platformalarda fəal iştirak Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında etimad mühitinin daha da möhkəmləndiyini təsdiqləyir. Sitat: ***"Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Sadəcə, qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə, ümumilikdə, 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib".***

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə nəqliyyat və logistika ilə yanaşı, enerji, "yaşıl enerji", sənaye, kənd təsərrüfatı, rəqəmsal transformasiya və investisiya sahələrində birgə layihələrin həyata keçirilməsinə xüsusi önəm verir. Qarşılıqlı sərmayələrin təşviqi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar iqtisadi inteqrasiyanın sürətlənməsinə mühüm töhfə verir.

Azərbaycan-Qırğızıstan münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi də bu siyasətin praktik nəticələrini nümayiş etdirir. Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun kapitalının 200 milyon dollara çatdırılması, sənaye və kənd təsərrüfatı layihələrinin maliyyələşdirilməsi, İssık-Kul sahilində Azərbaycan sərmayəsi hesabına inşa edilən "Baku Resort & Spa" mehmanxanasının istifadəyə verilməsi iqtisadi əməkdaşlığın konkret investisiya layihələri ilə möhkəmləndiyini göstərən mühüm nümunələrdir.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərində humanitar diplomatiya da mühüm yer tutur. Qarabağın bərpasına göstərilən dəstək, Ağdam şəhərində Qırğızıstanın maliyyə dəstəyi ilə inşa olunan Manas adına tam orta məktəb, qarşılıqlı mədəniyyət günləri və təhsil layihələri xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. Bu təşəbbüslər siyasi tərəfdaşlığın ictimai-humanitar müstəvidə də davamlı xarakter aldığını göstərir.

Çolpon-Ata görüşünün yekununda imzalanan Çolpon-Ata Bəyannaməsi isə region dövlətlərinin əməkdaşlığın gələcək inkişaf istiqamətləri ilə bağlı ortaq baxışını əks etdirir. Sənəddə nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsi, ticarətin artırılması, investisiyaların təşviqi, enerji təhlükəsizliyi, rəqəmsal inkişaf, ekoloji əməkdaşlıq və regional sabitliyin möhkəmləndirilməsi istiqamətində birgə fəaliyyətin davam etdirilməsi ilə bağlı siyasi iradə ifadə olunur.

Ümumilikdə, Azərbaycanın son illərdə həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursu Mərkəzi Asiya istiqamətində də konkret nəticələr verməkdədir. Çolpon-Ata görüşü göstərdi ki, tərəflər münasibətləri artıq təkcə siyasi dialoq müstəvisində deyil, institusional əməkdaşlıq, qarşılıqlı investisiyalar və birgə iqtisadi layihələr əsasında inkişaf etdirmək niyyətindədirlər. Azərbaycanın nəqliyyat-logistika imkanları, enerji və "yaşıl enerji" sahəsində irəli sürdüyü təşəbbüslər, eləcə də Türk dünyasında artan rolu ölkəni Mərkəzi Asiya ilə Avropa arasında strateji körpüyə çevirir. Bu baxımdan, Çolpon-Ata görüşü və qəbul edilən Bəyannamə növbəti diplomatik tədbirdən daha çox, regional əməkdaşlığın yeni inkişaf mərhələsini müəyyənləşdirən mühüm siyasi yol xəritəsi kimi dəyərləndirilə bilər.

Regional inteqrasiyanın dərinləşdirilməsi, Orta Dəhlizin potensialının daha səmərəli reallaşdırılması, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, eləcə də Türk dünyasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində atılan addımlar Azərbaycanın Mərkəzi Asiya siyasətinin gələcək dövrdə də xarici siyasətin prioritetlərindən biri olaraq qalacağını göstərir. Bu yanaşma, eyni zamanda Avrasiya məkanında yeni iqtisadi və geosiyasi əməkdaşlıq modelinin formalaşmasına mühüm töhfə verməyə davam edəcək.

**Nail ƏSGƏROV**



# Naxçıvanın gələcəyinə göstərilən diqqət və qayğı

**Prezident İlham ƏLİYEV:**

*“Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Xüsusilə 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özlərinə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir.”*

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin Naxçıvana səfərləri daim əlamətdar hadisələrlə yadda qalıb. Ölkə rəhbəri çıxışlarında dəfələrlə vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan, ümumilikdə isə Türk dünyasının mühüm strateji məkanlarından biridir. Qədim yurda göstərilən diqqət və qayğı ölkəmizin milli maraqlarından irəli gəlir. Tarix baxımından çox qısa bir dövr ərzində muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq işləri qədim diyarın hərtərəfli abadlaşdırılması Azərbaycan Prezidentinin imzaladığı Dövlət proqramları, fərman və sərəncamlardan irəli gələn vəzifələrin ardıcıl icrası nəticəsində mümkün olub. Əhalinin sosial rifahının yüksəldilməsi, abadlıq-quruculuq işlərinin sürətlə aparılması, təhsil və səhiyyə müəssisələrinin inkişafı, xidmət və infrastruktur sahələrinin müasir tələblərə uyğunlaşdırılması bu siyasətin əsas istiqamətlərini təşkil edib.

36 il blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında daxili imkanlarından, mövcud ehtiyatlarından və iqtisadi əlaqələrdən əldə olunan resurslar inkişafın sürətlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə yönəldilib. Bütün bunların təməlində isə Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Muxtar respublikanın bugünkü inkişafı da məhz siyasi kursun uğurlu nəticəsidir.

Blokada illərində qədim diyarda geniş tikinti-quruculuq və abadlıq işləri həyata keçirilib, yol-nəqliyyat sistemi müasir tələblərə uyğun yenidən qurulub, kommunal problemlərin həlli və infrastrukturun yenilənməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün Naxçıvan keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır.

Bu gün ölkə vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin bəhrəsini gündəlik həyatında hiss edir. Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları, ən ucqar kəndləri belə abadlaşdırılıb, insanların rahat yaşayışı üçün zəruri infrastruktur yaradılıb. Təsadüfi deyil ki, Naxçıvan əhalisinin sayı 472 min 820 nəfərə çatıb. Ölkə başçısının qeyd etdiyi kimi, əhalinin artımı, əlbəttə ki, bizi daha da gücləndirir, eyni zamanda yeni inkişafı da şərtləndirir. Çünki artan əhali yeni iş yerlərinin, yeni sənaye müəssisələrinin yaradılmasını zəruri edir.

Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfərlərinin nəticələrinə əsaslanaraq deyə bilərik ki, muxtar respublika bu gün ölkənin dinamik inkişaf edən regionlarından biridir. Dövlət başçısının muxtar respublikaya göstərdiyi davamlı diqqət və qayğı Naxçıvanın bundan sonrakı inkişafının etibarlı təminatıdır.

### Naxçıvanın gələcək inkişafı üçün

Naxçıvan Muxtar Respublikası təkcə ölkəmiz üçün deyil, bütövlükdə, Türk dünyası üçün mühüm geostrateji əhəmiyyətə malik bölgədir. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətində Naxçıvanın təhlükəsizliyinin möhkəmləndirilməsi və dayanıqlı inkişafı hər zaman xüsusi yer tutub. Bu gün həmin siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə Naxçıvanın gələcək inkişafı üçün möhkəm zəmin yaradır. Dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, infrastrukturun yenilənməsi və əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Vətən müharibəsində qazanılan möhtəşəm zəfərdən sonra bölgədə yaranmış yeni geosiyasi reallıqlar Naxçıvanın strateji əhəmiyyətini daha da artırıb. İmzalanmış bəyanatlar və əldə olunan razılaşmalar bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üçün geniş imkanlar açır. Ermənistan ərazisindən Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat əlaqəsinin yaradılması istiqamətində atılan addımlar qədim diyarın 36 illik blokadasına son qoymaqla yanaşı, ölkəmizin vahid nəqliyyat sisteminin formalaşmasına da mühüm töhfə verəcək. Zəngilandan Naxçıvana uzanacaq dəmir yolu xətti və avtomobil magistrallarının tikintisi muxtar respublikada tranzit və logistika imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək. Bu layihələr Naxçıvanın geostrateji mövqeyini daha da möhkəmləndirəcək, yeni iqtisadi perspektivlər açacaq və qədim diyarın beynəlxalq nəqliyyat marşrutlarında rolunu artıracaq. Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə Naxçıvan Azərbaycanın qərb bölgələri ilə birbaşa əlaqə qazanacaq, Türk dünyasını birləşdirən mühüm nəqliyyat qovşaqlarından birinə çevriləcək.

Əminliklə demək olar ki, vətənpərvərliyi, işgüzarlığı və prinsipiallığı ilə seçilən naxçıvanlılar bundan sonra da ölkəmizin inkişafına layiqli töhfələr verəcək, yeni uğurlara imza atacaqlar.

Dövlət başçısının qədim diyara göstərdiyi davamlı diqqət və qayğı Naxçıvanın gələcəyinə inamı daha da möhkəmləndirir və qarşıdakı illərdə yeni inkişaf zirvələrinin fəth olunacağına əminlik yaradır.

**Ramiyə ƏKBƏROVA**



# Biz xalqımıza, Prezidentimizə, dövlətimizə güvənirik



## Prezident İlham ƏLİYEV:

*“Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.”*

### Birliyimizə güvənirik

*“Ancaq özümüzə güvənməliyik və dövlətə güvənməliyik. Birlik heç vaxt sarsılmamalıdır. Nə üçün mən bunu deyirəm? Bəlkə də, bu gün bunu demək o qədər də məntiqli səslənməz. Çünki bu gün Azərbaycan cəmiyyətində olan birliyə oxşar mənzərə tapmaq da çətindir. Çünki bu, ürəkdən gələn, insanların zehnindən gələn bir birlikdir. Elə bil ki, iki çay birləşir bir yerə. Bax odur bu birlik – həm qəlbən, həm də necə deyərlər, fikir olaraq”.*

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın daha da güclənməsinə, qarşıya qoyulan strateji hədəflərin gerçəkləşməsinə və xalqın rifahının yüksəlməsinə möhkəm zəmin yaradıb. Azərbaycan xalqı tarixboyu ən çətin sınaqlardan birlik və qətiyyət sayəsində çıxıb. 1990-cı illərin ağır günlərində də heç kimin himayəsinə sığınmayaraq öz dövlətçiliyini qoruyub.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs nəticəsində Azərbaycan müstəqil qərarlar qəbul edən güclü dövlətə çevrildi. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirərək xalqı vahid məqsəd ətrafında birləşdirdi və ölkəmizi tarixi Zəfərə apardı.

### Ulu Öndərin ordu quruculuğu siyasəti uğurla davam etdi

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin peşəkarlığı yüksəldildi, şəxsi heyətin döyüş hazırlığı gücləndirildi, ordu ən müasir silah və texnika ilə təchiz olundu. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Eyni zamanda ölkəmizin beynəlxalq mövqeyi möhkəmləndirildi, müstəqil xarici siyasət uğurla davam etdirildi. Məhz bu uzaqgörən siyasət nəticəsində 44 günlük Vətən müharibəsində Azərbaycan bütün siyasi təzyiqlərə baxmayaraq, milli maraqlarını qətiyyətlə müdafiə etdi və tarixi Qələbə qazandı.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü diplomatiya Ermənistanı işğalçılıq siyasətinə görə regional layihələrdən təcrid etdi, Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı. Vətən müharibəsi həm döyüş meydanında, həm də diplomatik müstəvidə ölkəmizin üstünlüyünü bütün dünyaya nümayiş etdirdi.

Vətən müharibəsinin gedişatında reallıqlar hər gün daha da aydın şəkildə gün işığına çıxırdı. Nəticədə isə sübut olundu ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu və hər detalı ən incə məqamına qədər hesablayan və diqqətə alan uzaqgörən diplomatiyamız hər hansı bir zəif düşmən üzərində deyil, güclü təşkilatlanmış bir düşmən, eyni zamanda onu himayə edən qərəzli, məkrli qüvvələr üzərində qələbə idi.

### Ata vəsiyyətini yerinə yetirmək şərəfi

Ulu Öndər Heydər Əliyev gələcək nəsillərə müstəqil və güclü Azərbaycan miras qoydu. Bu mirası qorumaq, ərazi bütövlüyünü təmin etmək Prezident İlham Əliyevin üzərinə düşən tarixi missiya idi.

Prezident seçildiyi gündən Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyinə verdiyi vədə sadiq qaldı. Cəmi 44 gün ərzində düşmən həm hərbi, həm də siyasi müstəvidə məğlub edildi, xalqımıza Zəfər sevinci yaşadıldı.

İşğaldan azad olunmuş torpaqlarla bağlı hər müraciətində dövlət başçısı verdiyi sözə əməl etdiyini nümayiş etdirdi. ***“Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz…”*** sözləri Böyük Qayıdışın rəmzinə çevrildi.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, doğma yurdlarına qayıdan ailələr, istifadəyə verilən yaşayış məntəqələri və sosial obyektlər bu siyasətin real nəticələridir. Prezident İlham Əliyevin illər əvvəl söylədiyi kimi: ***“Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq...”***

### Siyasət dahisi, mahir sərkərdə

Bu xalq 44 gündə öz liderini yenidən kəşf etdi. Onun bir siyasət dahisi olmaqla bərabər, mahir bir sərkərdə olduğunu da gördü. Bütün dünya Azərbaycanın Ali Baş Komandanına həsəd apardı. Hətta düşmən dövlətin vətəndaşı belə İlham Əliyev kimi bir Prezident arzusunda olduğunu etiraf etdi. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa, Ali Baş Komandan ata vəsiyyətini yerinə yetirən oğula çevrildi. Füzuli Beynəlxalq Hava Limanına enən təyyarədə səslənən “Qarabağa xoş gəlmisiniz!” sözlərini eşidəndə, qələbədən keçən altı ildə Şuşada, Füzulidə, Zəngilanda, Ağdamda, Xocalı, Xocavənddə aparılan quruculuq işlərini, keçirilən möhtəşəm tədbirləri, öz doğma ocaqlarına birdəfəlik yerləşən ailələrin yanan çırağını, Şuşada qurulan büsatımızı, Zəngilanda dünyaya gələn körpələrimizi, Füzulidə məktəbə tələsən uşaqlarımızın sevincini, Xankəndidə addımlayan Azərbaycan əsgərinin ayaq səsindən qorxuya düşən düşməni görəndə bir daha əmin olduq Ulu Öndərin bizi ən doğru insana əmanət etdiyinə.

Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı birliyi və həmrəyliyi ilə tarix yazdı. Dövlətimizə, Prezidentimizə və öz gücünə arxalanan xalqımız torpaqlarını işğaldan azad etdi, suverenliyini tam bərpa etdi və qalib xalq kimi yeni inkişaf mərhələsinə qədəm qoydu. Xalqına güvənən Prezident İlham Əliyev öz müqəddəs borcunu, ata vəsiyyətini yerinə yetirərək Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, Müzəffər Ali Baş Komandan kimi xalqımızın tarixi yaddaşında əbədi yer qazandı.

**Ramiyə ƏKBƏROVA**



## A.M.Babayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Anar Mehti oğlu Babayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## N.R.Hacıyevin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Nurlan Rauf oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## N.E.Cahidzadənin Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naim Etibar oğlu Cahidzadə Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## N.E.Cahidzadənin Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naim Etibar oğlu Cahidzadə Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 avqust 2026-cı il*

## R.Z.Rəhimlinin Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rəcəb Zakir oğlu Rəhimli Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 avqust 2026-cı il*

# Naxçıvan şəhərinə, Ordubad və Culfa rayonlarına yeni təyin olunmuş icra hakimiyyəti başçıları kollektivlərə təqdim ediliblər






Avqustun 5-də Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 4 avqust tarixli sərəncamları ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuş Anar Babayev, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuş Nurlan Hacıyev və Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuş Naim Cahidzadə ictimaiyyətə və müvafiq kollektivlərə təqdim ediliblər.





Təqdimat mərasimlərindən əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və yeni təyin olunmuş icra hakimiyyəti başçıları Naxçıvan şəhərində, Ordubad və Culfa rayon mərkəzlərində Ümummilli Lider Heydər Əliyevin abidələrini ziyarət edərək önünə gül dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Təqdimat mərasimlərində çıxış edən səlahiyyətli nümayəndə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin yeni təyinatlarla bağlı sərəncamlarını elan edib, dövlət başçısının tapşırıq və tövsiyələrini iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mərkəzində vətəndaş məmnunluğu, sosial rifahın yüksəldilməsi və dövlət-vətəndaş münasibətlərində şəffaflığın təmin olunması dayanır. Vurğulanıb ki, vətəndaş müraciətlərinə həssas yanaşılmalı, onlar operativ və qanunvericiliyin tələblərinə uyğun şəkildə həll edilməli, dövlət qulluqçuları əhali ilə münasibətdə yüksək etik davranış nümunəsi göstərməlidirlər.





Ceyhun Cəlilov korrupsiyaya qarşı mübarizə, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, kənd təsərrüfatının inkişafı, məşğulluğun artırılması, yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, kadr potensialının gücləndirilməsi, torpaq, su və mineral ehtiyatlardan, eləcə də dövlət əmlakından səmərəli istifadə olunması, ekoloji tarazlığın qorunması, sahibkarlığın inkişafı və bu sahədə şəffaflığın təmin edilməsi, sosial ədalət prinsiplərinin möhkəmləndirilməsi istiqamətində qarşıda duran vəzifələri diqqətə çatdırıb.





Qeyd olunub ki, qarşıda duran əsas vəzifələr Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”, eləcə də içməli və təsərrüfat suyu ilə təminatın yaxşılaşdırılması istiqamətində dövlət başçısının müvafiq tapşırıqları istiqamətində nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə icrasının təmin edilməsidir. Bildirilib ki, bu proqramların uğurla həyata keçirilməsi muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə, əhalinin rifahının daha da yüksəldilməsinə və regionların dayanıqlı inkişafına mühüm töhfə verəcək.

Səlahiyyətli nümayəndə Naxçıvan şəhəri, Ordubad və Culfa rayonlarının yeni icra hakimiyyəti başçılarını göstərilən yüksək etimada görə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb və Azərbaycan Respublikası Prezidentinin muxtar respublikanın inkişafı ilə bağlı müəyyən etdiyi vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Nurlan Hacıyev, Culfa Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Anar Babayev çıxış edərək onlara göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar dövlət başçısının qarşıya qoyduğu tapşırıqları vaxtında və layiqincə yerinə yetirmək, vətəndaş məmnunluğunu təmin etmək, əhalinin sosial rifahının yüksəldilməsi və müvafiq ərazilərin davamlı inkişafı naminə bütün bilik və bacarıqlarını səfərbər edəcəklərini vurğulayıblar.

# Zəngəzur dəhlizi üzərində gizli xəzinə Şərur



Müasir dövrdə qlobal logistika və enerji böhranları fonunda etibarlı nəqliyyat dəhlizləri artıq təkcə onlardan faydalanan ölkələrin deyil, bütün dünyanın geosiyasi xəritəsində mühüm strateji xətlərə çevrilmişdir. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən sonra beynəlxalq siyasi gündəmdə xüsusi yer tutan Zəngəzur dəhlizi də Azərbaycanın liderliyi ilə Cənubi Qafqazda formalaşan dayanıqlı sülhün və regional əməkdaşlığın əsas açar anlayışlarından biridir.

Bu dəhliz təkcə 30 ildən artıq müddətdə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında bağlı qalmış kommunikasiyaları bərpa etməyəcək. O eyni zamanda muxtar respublikanın bütün rayonlarının sosial-iqtisadi inkişafını yeni mərhələyə yüksəldəcək. Bakı ilə Naxçıvan arasında sərnişin və yükdaşımalarının genişlənməsi, turizmin inkişafı, enerji, o cümlədən “yaşıl enerji” layihələrinin reallaşması, logistika və xidmət sektoruna yeni investisiyaların cəlbi, yerli sənaye və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsi Zəngəzur dəhlizinin Naxçıvan iqtisadiyyatına verəcəyi əsas töhfələrdəndir.

Zəngəzur dəhlizinin əhəmiyyəti barədə bu gün çox yazılır, müxtəlif yanaşmalar irəli sürülür. Bu da təbiidir. Azərbaycanın və Naxçıvanın sosial-iqtisadi inkişafını araşdıran yerli və xarici ekspertlər, media nümayəndələri dəhlizin perspektivlərini daha yaxından öyrənmək üçün Naxçıvana səfər edir, uzun illər davam etmiş blokadanın nəticələrini yerində müşahidə edir, infrastruktur layihələri ilə tanış olur və gələcək inkişaf imkanlarını qiymətləndirirlər.

Naxçıvan blokada şəraitində yaşadığı uzun illər ərzində sahib olduğu dəyərləri, ziyalı potensialını, sahibkarlarını və insanların bir-birinə bağlılığını qoruyub saxlamışdır. Məhz bu amillər bu gün Zəngəzur dəhlizi kimi XXI əsrin mühüm geoiqtisadi layihəsi fonunda daha böyük əhəmiyyət kəsb edir. Çünki gələcək tranzit-logistika imkanlarının səmərəli reallaşdırılması, ilk növbədə, peşəkar insan resurslarından asılı olacaqdır.

Doğulduğu torpağı yaxşı tanıyan yerli kadrlar, onların yetişdiyi ali təhsil müəssisələri və elmi mühit dövlət başçısının müəyyən etdiyi inkişaf prioritetlərinə uyğun olaraq regionun sosial-iqtisadi inkişafına, eyni zamanda qlobal çağırışlara cavab verən yeni yanaşmaların formalaşdırılmasına mühüm töhfə verirlər. Buna görə də Naxçıvanı tanımaq istəyən hər bir tədqiqatçı üçün regionun iqtisadi potensialını, mədəni irsini, turizm ehtiyatlarını və logistika imkanlarını yerində öyrənmək daha obyektiv nəticələr əldə etməyə imkan verir.

Şərur iqtisadi potensialı, zəngin torpaq-iqlim şəraiti, əməksevər insanları və qonaqpərvərliyi ilə təkcə Naxçıvanın deyil, bütövlükdə, Azərbaycanın seçilən bölgələrindən biridir. Qədim dövrlərdən Türk dünyasına açılan mühüm qapılardan biri olan bu yurd Azərbaycanla qardaş Türkiyə arasında etibarlı əlaqə məkanlarından biri kimi tanınmışdır.



Sovet hakimiyyəti illərində rayonun adı iki dəfə dəyişdirilsə də, xalq yaddaşında, ziyalıların çıxışlarında, Azərbaycan ədəbiyyatında və “Şərq qapısı” qəzetinin səhifələrində Şərur adı daim yaşadılmışdır. Bu fakt belə rayonun tarixi kimliyinə və insanların doğma yurda bağlılığına verilən dəyərin bariz nümunəsidir.

Naxçıvanın Əshabi-kəhf, Ordubad, Batabat və Əlincə kimi məşhur məkanlarını ziyarət etmiş hər bir qonağın Şərura da xüsusi maraq göstərməsi təsadüfi deyil. Çünki bu qədim diyar həm zəngin tarixə, həm də müasir inkişaf potensialına malik bölgələrdən biridir.

1930-cu ildə rayon statusu alan Şərurun bu gün 815 kvadratkilometrdən artıq ərazisi, 64 yaşayış məntəqəsi və 111 mindən çox əhalisi vardır. Onların 30 mindən çoxu rayon mərkəzi olan Şərur şəhərində yaşayır. Naxçıvanın ikinci böyük şəhəri sayılan Şərur Ermənistan və İranla həmsərhəd olmaqla yanaşı, Türkiyə istiqamətində uzanan mühüm avtomobil yolları, dəmir yolu və enerji xətlərinin üzərində yerləşir. Məhz bu strateji mövqe XXI əsrin yeni nəqliyyat xəritəsində rayonun əhəmiyyətini daha da artırır.

Şərurun təbiəti onun iqtisadi həyatının ayrılmaz hissəsidir. Bir tərəfdə uca dağ silsilələri, digər tərəfdə isə məhsuldar düzənliklər uzanır. Burada torpaq il ərzində iki dəfə məhsul verir. Yaz fəslinin hələ fevralın sonlarından başlaması rayonun kənd təsərrüfatına xüsusi üstünlük qazandırır. Şahbuzda ağaclar yenicə çiçəkləyərkən şərurlular artıq təzə kartofunu, sulu göycəsini və digər yaz məhsullarını bazara çıxarırlar.

Keçmiş SSRİ dövründə Şərurun erkən mövsüm məhsulları ittifaqın iri şəhərlərinə göndərilir, burada istehsal olunan şərablar isə geniş bazarlara ixrac edilirdi. Bu gün də rayonun münbit torpaqları və zəngin aqrar ənənələri onun iqtisadi inkişafının əsas dayaqlarından biri olaraq qalır.

Rayondan keçən Araz və Arpaçay çayları əsrlərboyu burada həyatın və kənd təsərrüfatının davamlılığını təmin etmişdir. Hazırda da bu çaylar içməli su təminatının, suvarma sistemlərinin və ekoloji tarazlığın əsas mənbələrindəndir. Təxminən, 150 milyon kubmetr tutuma malik Arpaçay su anbarı təkcə mühəndislik qurğusu deyil, həm də regionun sosial-iqtisadi inkişafına xidmət edən mühüm strateji obyektdir.

Şahbulaq kəndinə aparan yol boyunca uzanan dərin kanyon və onun yaratdığı qeyri-adi relyef ilk baxışdan Mars səthini xatırladır. Bu unikal təbiət mənzərəsi fotoqraflar, təbiətsevərlər və macəra turizmini sevənlər üçün xüsusi maraq doğurur. Şərura gələn xarici turistlərin ən çox maraq göstərdikləri mənzərələrdən biri isə Ağrı dağının rayon ərazisindən açılan möhtəşəm panoramıdır. Bu mənzərə həm təbiətin gözəlliyini, həm də regionun coğrafi üstünlüklərini özündə birləşdirən nadir görüntülərdəndir.

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Şərur əsrlərboyu ticarət yollarının, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olmuşdur. Bu gün isə Zəngəzur dəhlizi ətrafında formalaşan yeni nəqliyyat və iqtisadi münasibətlər rayonu təkcə Naxçıvanın deyil, bütövlükdə, Cənubi Qafqazın mühüm logistika və turizm mərkəzlərindən birinə çevirmək potensialına malikdir. Lakin Şərurun əsl zənginliyi yalnız əlverişli coğrafi mövqeyi ilə məhdudlaşmır. Bu torpaq minilliklər boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmiş, onların izlərini günümüzədək yaşatmışdır. Tənənəm kəndində yerləşən Paleolit dövrünə aid Qazma mağarası, Oğlanqala şəhər-qala kompleksi, Qarasu qalası, Qızqala yaşayış yeri, Maxta nekropolları, Parçı İmamzadəsi, Piri-Süleyman xanəgahı, Yengicə hamamı və tarixi buzxana Şərurun zəngin mədəni irsinin ən qiymətli nümunələridir. Bu abidələr gələcəkdə rayona gələcək minlərlə turist üçün böyük maraq doğura biləcək mühüm turizm resurslarıdır.

Şərur həm də qəhrəmanlar yurdudur. Birinci və İkinci Qarabağ müharibələrində rayonun 103 igid övladı Vətən uğrunda canından keçmişdir. Bu qəhrəmanlıq salnaməsi Şərurun müasir tarixinin ayrılmaz hissəsidir. Şəhərin ən görkəmli məkanlarından birində yerləşən, daim gül-çiçəyə qərq olan Şəhidlər xiyabanını ziyarət edən hər bir qonaq burada Vətən uğrunda canını fəda etmiş şərurluların ömür yoluna və qəhrəmanlıq nümunəsinə böyük ehtiramla şahid olur.

Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Şərurun inkişafını diqqət mərkəzində saxlamış, rayonun potensialını yüksək qiymətləndirmişdir. Ulu Öndərin ***“Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var”*** fikri bu qədim diyarın təbii sərvətlərini, zəhmətkeş insanlarını və inkişaf imkanlarını dəqiq ifadə edir.

Şərur sakinləri zəhmətsevərliyi, təşəbbüskarlığı və vətənpərvərliyi ilə blokada illərinin ən çətin sınaqlarından uğurla çıxmış, doğma yurdun inkişafı naminə böyük fədakarlıq göstərmişlər. Bu gün isə regionda yeni inteqrasiya mərhələsinin başlanması, nəqliyyat-kommunikasiya əlaqələrinin genişlənməsi və Zəngəzur dəhlizinin açılması perspektivi rayon üçün tamamilə yeni inkişaf imkanları yaradır.

Yaxın gələcəkdə Şərurun regional logistika mərkəzi, kənd təsərrüfatı məhsullarının ixrac qovşağı, xidmət və ticarət məkanı kimi mövqeyinin daha da möhkəmlənəcəyi gözlənilir. Türkiyə istiqamətindən Naxçıvana gələcək turistlər üçün əsas dayanacaq məntəqələrindən birinə çevrilməsi, nəqliyyat əlçatanlığının artması, yeni hotellərin, restoranların, ailə təsərrüfatlarının, kənd turizmi obyektlərinin və digər xidmət sahələrinin inkişafı rayonun iqtisadi fəallığını əhəmiyyətli dərəcədə artıracaqdır.

Zəngəzur dəhlizi təkcə yeni nəqliyyat marşrutu deyil, Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan arasında iqtisadi, sosial və humanitar əlaqələri daha da möhkəmləndirəcək strateji inkişaf layihəsidir. Bu layihənin əsas keçid məntəqələrindən biri olan Şərur əlverişli coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, qədim tarixi, əməksevər insanları və formalaşmış təsərrüfat ənənələri ilə yeni dövrün ən böyük qazanan bölgələrindən biri olmaq üçün bütün üstünlüklərə malikdir.

Əslində, Şərur bu gün öz gələcəyini sıfırdan qurmur. O, minilliklər boyu formalaşmış tarixini, zəngin mədəni irsini, məhsuldar torpaqlarını və insan kapitalını yeni inkişaf mərhələsinə daşıyır. Zəngəzur dəhlizinin yaratdığı imkanlar isə bu potensialın daha dolğun reallaşmasına xidmət edəcək.

Bu baxımdan, Şəruru Zəngəzur dəhlizi üzərində yerləşən adi bir rayon kimi deyil, qədim tarixini müasir inkişaf strategiyası ilə birləşdirən, Cənubi Qafqazın gələcək nəqliyyat, logistika, turizm və iqtisadi xəritəsində xüsusi yer tutmağa hazırlanan gizli xəzinə kimi dəyərləndirmək daha doğru olar.

**✍ Əli CABBAROV**



# Qadın əməyinin gücü bir kooperativdə birləşir

Qadın əməyinin daha geniş şəkildə dəstəklənməsi, onların istehsal imkanlarının artırılması, hazırladıqları məhsulların tanıdılması və bazara çıxışının asanlaşdırılması məqsədilə Naxçıvanda "Fermer" İstehsal-İstehlak Qadın Kooperativi yaradılıb. Kooperativin sədri vəzifəsinə Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi Mehparə Hüseynova seçilib. Kooperativin fəaliyyəti və gələcək planları ilə bağlı Mehparə Hüseynova ilə həmsöhbət olduq.





"Təsərrüfatla 10 ildən artıqdır ki, məşğulam. Bu sahədə çalışmaq mənim üçün sadəcə, peşə deyil, həm də böyük zəhmət və sevgi tələb edən həyat yoludur. 2017-ci ildən hazırladığımız məhsulların satışına başlamışıq. Həmin vaxtdan etibarən müxtəlif festivallarda iştirak edərək məhsullarımızı nümayiş etdirmişik. Türkiyənin Ərzurum və Van şəhərlərində, eləcə də Bakıda keçirilən festivallarda, Bakı Ekspo Mərkəzində təşkil olunan kənd təsərrüfatı sərgilərində məhsullarımızı təqdim etmişik. Bu tədbirlər həm məhsullarımızın tanıdılmasına, həm də yeni əməkdaşlıq imkanlarının yaranmasına şərait yaradıb", – deyə Mehparə Hüseynova bildirib.

Onun sözlərinə görə, kooperativin əsas məqsədlərindən biri Naxçıvanın müxtəlif bölgələrində fəaliyyət göstərən qadın istehsalçıları bir araya gətirmək, onların təcrübə mübadiləsinə və məhsullarını daha geniş bazara çıxarmasına dəstək olmaqdır. Hazırda kooperativdə Naxçıvanın müxtəlif rayonlarından olan qadınlar fəaliyyət göstərirlər. Ordubad, Culfa, Sədərək, Şahbuz və digər bölgələri əhatə edən bu birlik yerli istehsalın inkişafına mühüm töhfə verir.

Mehparə Hüseynova bildirib ki, kooperativ gələcəkdə daha çox qadının fəaliyyətinə dəstək göstərəcək, onların hazırladığı məhsulların tanıdılmasına və satış imkanlarının genişləndirilməsinə xidmət edəcək: "Əsas məqsədimiz qadınlarımızın zəhmətini dəyərləndirmək, onların illər ərzində qazandıqları təcrübəni bir araya gətirmək və hazırladıqları məhsulları daha geniş auditoriyaya təqdim etməkdir. İnanırıq ki, bu kooperativ həm qadınlarımız üçün yeni imkanlar yaradacaq, həm də Naxçıvanın keyfiyyətli və təbii məhsullarının tanıdılmasına mühüm töhfə verəcək".



Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 iyul tarixli Sərəncamı ilə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Sənəddə məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi, əmək bazarının tənzimlənməsi sahəsində normativ-hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, işçi qüvvəsinin bacarıqlarının artırılması və əmək standartlarının inkişaf etdirilməsi daxil olmaqla altı prioritet istiqamət üzrə tədbirlər müəyyənləşdirilib.

Yeni yaradılan "Fermer" İstehsal-İstehlak Qadın Kooperativi də dövlətin qadın sahibkarlığının və məşğulluğunun genişləndirilməsi istiqamətində həyata keçirdiyi siyasətin praktik nəticələrindən biri kimi qiymətləndirilə bilər. Kooperativin fəaliyyəti qadınların iqtisadi fəallığının artırılmasına, ailə təsərrüfatlarının gəlirlərinin yüksəldilməsinə, eyni zamanda Naxçıvanda istehsal olunan təbii və keyfiyyətli məhsulların daha geniş bazarlara çıxarılmasına mühüm töhfə verəcək.

**Günay HACIYEVA**

# "Ərbabın iş yeri" adlanan tarixi binanın bərpası davam edir

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" adlanan tarixi bina əvvəlki görkəminə qaytarılır.

Hazırda binanın dam örtüyü tam yenilənib, elektrik xətləri çəkilib və əsas təmir-bərpa mərhələsinə başlanılıb. İşlərin növbətii ilin sonunadək yekunlaşdırılması planlaşdırılır.

Layihəyə əsasən bina tam şəkildə ilkin vəziyyətinə qaytarılacaq, mövcud ornamentlər bərpa olunacaq. Binada "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşlarının xidməti fəaliyyəti üçün iş otağı yaradılacaq. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində ictimaiyyət üçün açıq kafe fəaliyyət göstərəcək. İkinci mərtəbədə inzibati otaqlar və geniş konfrans zalı yaradılacaq.



# Zəhmətlə becərilən qarğıdalı sahələrində bol məhsul gözləntisi var

Yayın isti günlərində yaşıl rəngə bürünən qarğıdalı sahələri kəndin mənzərəsinə xüsusi gözəllik bəxş edir. Torpağa səpilən kiçik toxum aylar ərzində zəhmət, düzgün qulluq və təbiətin bəxş etdiyi imkanlarla bol məhsula çevrilir. Bu gün qədim Naxçıvanın Şərur və Babək rayonlarında da təsərrüfatçılar qarğıdalı əkininə maraq göstərərək həm ərzaq təminatına, həm də kənd təsərrüfatının inkişafına öz töhfələrini verirlər.



Kənd təsərrüfatı istehsalının inkişafı, əkin sahələrindən səmərəli istifadə və məhsuldarlığın artırılması istiqamətində həyata keçirilən tədbirlər təsərrüfatın müxtəlif sahələrini əhatə edir. Qarğıdalı istehsalının genişləndirilməsi də aqrar sahədə qarşıya qoyulan əsas məqsədlərdən biri olmaqla fermerlərin fəaliyyətinin dəstəklənməsinə və yerli istehsalın artırılmasına xidmət edir. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" aqrar sahədə istehsal imkanlarının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və emal potensialının gücləndirilməsi baxımından mühüm istiqamətləri müəyyənləşdirir. Hazırda muxtar respublikada qarğıdalı əkin sahələri də bu hədəflərin yerlərdə uğurla həyata keçirilməsinin bariz nümunələrindən biridir.

Qarğıdalı sahələrində zəhmətin bəhrəsini yaxından görmək üçün yolumuzu Şərur rayonuna saldıq. Yay küləyinin yırğaladığı yaşıl əkinlər arasında bizi Xanlıqlar kənd sakini, uzun illərdir, əkinçiliklə məşğul olan Emin Salmanov qarşılayır. O, söhbətə təsərrüfatı haqqında məlumat verməklə başlayır. Bildirir ki, artıq 10 ilə yaxındır, qarğıdalı əkini ilə məşğuldur. Bu müddət ərzində qazandığı təcrübə ona hər il əkinlərini daha səmərəli təşkil etməyə imkan verib.

Təsərrüfatçının sözlərinə görə, bu il 8 hektar sahədə qarğıdalı əkilib. Əkin sahələrinin hər il bir qədər də genişləndirildiyini deyən Emin Salmanov hazırda qarğıdalını, əsasən, dən məqsədilə becərdiklərini bildirir. Düzgün aqrotexniki qulluq, vaxtında aparılan becərmə işləri və suvarma məhsuldarlığın yüksəlməsində mühüm rol oynayır.

Emin Salmanovun sözlərinə görə, təsərrüfatlarında hər hektardan orta hesabla 13-14 ton məhsul əldə olunur. Bu il hava şəraitinin əlverişli keçməsi də məhsuldarlığa müsbət təsir göstərib. Yağıntıların kifayət qədər olması və suvarma suyunun vaxtında təmin edilməsi qarğıdalının normal inkişafına şərait yaradıb. Bütün bunlar məhsulun keyfiyyətində və məhsuldarlıq göstəricilərində özünü aydın şəkildə göstərir.



Təsərrüfatçı sonda vurğulayır ki, əkinçilik zəhmət tələb edən sahədir və mövsüm ərzində müəyyən çətinliklərlə də qarşılaşırlar. Buna baxmayaraq, görülən işin nəticəsi onları daha həvəslə çalışmağa sövq edir. Onun əsas məqsədi məhsuldarlığı daha da artırmaq, mövcud təsərrüfatı genişləndirmək və gələcək illərdə qarğıdalı əkin sahələrinin həcmini artıraraq istehsalı daha da inkişaf etdirməkdir.

Şərurun yaşıl sahələrindən ayrılaraq yolumuzu Babək rayonuna salırıq. Əkinçiliyin inkişafı istiqamətində görülən işlərlə bu dəfə də burada tanış oluruq.

Qəsəbə sakini Şirxan Rüstəmov bu il ilk dəfə qarğıdalı əkini aparıb. Təxminən, bir hektara yaxın sahədə əkin işi aparan fermer bildirir ki, yüksək məhsuldarlıq əldə etmək üçün aqrotexniki qaydalara ciddi əməl etmək əsas şərtdir.

Qarğıdalı heyvandarlıqda istifadə olunan əsas yem məhsuludur. Yetişdirilən qarğıdalının əsas hissəsi yemlik məqsədilə istifadə olunacaq. Məhsulun bir hissəsinin isə yerli bazara çıxarılması planlaşdırılır. Bu həm təsərrüfatın gəlirlərinin artmasına, həm də bazarın yerli məhsulla təmin olunmasına töhfə verəcək.



İlk əkin təcrübəsindən razı qalan fermer gələcəkdə qarğıdalı sahələrini daha da genişləndirməyi düşünür. O hesab edir ki, torpaqdan səmərəli istifadə, düzgün qulluq və zəhmət sayəsində daha yüksək məhsuldarlığa nail olmaq mümkündür.

Beləliklə, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin uğurla yerinə yetirilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafına dəstək verməklə yanaşı, eyni zamanda sənaye istehsalının da artırılmasına öz töhfəsini verəcək. Qarğıdalı istehsalı həm mal-qaranın və quşçuluğun yem bazası, həm də yağ emalı istiqamətində yeni addımlara şərait yaradır. Bu isə dayanıqlı inkişaf və keyfiyyətli yerli məhsul bolluğu yaratmağa təminatdır.

**Zəhra VƏLİYEVA**

# Mən Cavidlər ocağının sönməyən məşəliyəm









Naxçıvanın qədim Əlixan məhəlləsində sakitcə dayanıb əsrlərin axışını izləyirəm... Mən daşdan, kərpicdən hörülmüş bir bina deyiləm, böyük bir zəkanın, fırtınalı taleyin və bədii təfəkkürün ilk qığılcımlarını bağrında yaşadan canlı şahidəm. Divarlarıma hopan hər kölgə, pəncərələrimdən süzülən hər işıq zərrəsi Şərqin böyük filosof-şairi Hüseyn Cavidin nəfəsini yaşadır. Onun gənclik illərinə, misra-misra doğulan böyük poeziyasına, ilk arzularına və sənət eşqinə 1918-ci ilədək burada qucaq açmışam. O günlərdə divarlarım onun fəlsəfi düşüncələrinin əks-sədası ilə yaşayır, hər guşəmdə romantizmin ecazkar ruhu dolaşırdı. Cavid bu ocaqdan ayrılandan sonra uzun illər onun dönüşünü, isti nəfəsini və doğma addım səslərini böyük həsrətlə gözlədim.

Zaman keçdikcə fırtınalı illərin tozu üstümə qonsa, unutqanlığın soyuq nəfəsi divarlarımı sarsıtsa da, daxilimdəki müqəddəs işıq heç vaxt sönmədi. Unudulmaq qorxusu qəlbimi bürüdüyü anlarda belə inanırdım ki, bu böyük ruh bir gün yenidən öz doğma yuvasına qayıdacaq. Nəhayət, böyük şəxsiyyətə və milli irsə göstərilən misilsiz ehtiram sayəsində yenidən dirçəldim. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və xüsusi diqqəti ilə bağrımdakı əziz xatirələr yenidən işığa çıxdı, tarixin tozlu səhifələrindən qoparaq gələcəyə yol aldı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 21 iyul 1981-ci il tarixli "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" Qərarı ilə adi yaşayış evi olmaqdan çıxıb, şairin xatirəsini əbədiləşdirən müqəddəs bir ocağa – muzeyə çevrilmək hüququ qazandım. O gün sanki divarlarım yenidən nəfəs aldı, illərin nisgili yerini qürura və ümidə verdi.

İllər sürətlə ötüb keçdi və 1984-cü il iyunun 9-u Naxçıvanın mənəvi həyatına qızıl hərflərlə yazıldı. Həmin gün Cavidsevərlərin, ədəbiyyat aşiqlərinin üzünə qapılarımı rəsmən açdım. Açılan təkcə mənim taxta qapılarım deyildi, illərlə həsrətə, sürgünə məhkum edilmiş Hüseyn Cavid də həmin gün incidilmiş doğma ocağına, yuvasına, öz xalqının qəlbinə qayıtdı. Mən artıq, sadəcə, eksponatların nümayiş edildiyi bir bina deyildim. Cavidşünaslığın, milli təfəkkürün və romantizm işığının yaşadıldığı mənəvi mərkəzə çevrilmişdim. İçimdə qorunan hər əşya, hər əlyazma, hər bir saralmış şəkil ziyarətçilərə şairin acılı-şirinli taleyindən, sarsılmaz iradəsindən öz dili ilə danışmağa başladı. Buraya gələn hər kəs şairin mənəvi aləminə daxil olur, onunla üz-üzə qalırdı.

Tarix irəlilədikcə mənəvi yüküm daha da artdı, əhatəm genişləndi, bağrımda yaşatdığım ehtiram daha da dərinləşdi. 2015-ci ildən etibarən tərkibimə Hüseyn Cavidin əbədi istirahətgahı – möhtəşəm məqbərəsi də daxil edildi və adım "Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksi" oldu. İndi buraya qədəm qoyan hər kəs şairin gənclik illərinin nəfəsini duyur, pəncərələrimdən boylanaraq onun əbədiyyət məqbərəsinə ehtiramla nəzər salır. Mən Cavidlər ocağının sönməyən məşəliyəm. Bir xalqın öz dahi şairinə olan əbədi sevgisinin, bitməz ehtiramının və zamana qalib gələn sənətinin daşıyıcısıyam. Mən təkcə həmin dahinin keçmişinin şahidi deyiləm. Mən Cavid ruhunu bu gündən gələcəyə daşıyan əbədi körpüyəm…

✍ **Elnurə CƏFƏROVA**









**"Şəhərsalma və Memarlıq İli"**

# Naxçıvan Şəhər Poliklinikasının memarlıq estetikası: Əcəmi ənənələrinin müasir təcəssümü



Akademik Zərifə Əliyevanın adını daşıyan Naxçıvan Şəhər Poliklinikası tibb ocağı olmaqla yanaşı, həm də milli memarlıq ənənələrinin müasir dövrdə yaşadılmasının bariz nümunəsidir. Poliklinikanın memarlıq tərtibatında XII əsrin dahi memarı Əcəmi Naxçıvaninin yaradıcılığına xas olan zəngin ornamental ənənələrdən geniş şəkildə istifadə olunmuşdur. Bu arxitektura yanaşması Naxçıvan memarlıq məktəbinin əsrlərdən gələn davamlılığını və zəngin estetik düşüncə sistemini bir daha nümayiş etdirir.

Əcəmi Naxçıvaninin yaratdığı memarlıq dizaynı bu gün də Naxçıvanın şəhərsalma ənənələrini özündə ehtiva edən bu poliklinikada öz əbədiyaşarlığını qorumaqdadır. Burada Əcəminin memarlıq məktəbinə məxsus olan həndəsi dəqiqlik, simmetriya və harmonik kompozisiya prinsipləri müasir tikinti texnologiyaları ilə sintez edilərək yeni estetik mühit yaradır. Xüsusilə Əcəmi memarlığında mühüm yer tutan cəfəri şəbəkə sistemi bu binada müasir interpretasiyada tətbiq olunub, ənənəvi ornamentalistika ilə çağdaş memarlıq üslubunun vəhdəti təmin edilib. Şəbəkə elementlərinin incə quruluşu, onların ritmik təkrarlanması və kompozisiya baxımından balanslı yerləşdirilməsi binanın fasadında xüsusi vizual ahəng formalaşdırır.

Bu ornamental quruluş yalnız estetik gözəllik yaratmaqla kifayətlənmir, eyni zamanda işıq və kölgənin ustalıqla idarə olunmasına şərait yaradır. Günəş şüalarının şəbəkə elementləri arasından keçərək yaratdığı dinamik naxışlar məkana canlılıq qazandırır, eksteryerdə vizual keçid effekti formalaşdırır. Şəbəkə ornamentlərinin ritmik quruluşu binanın fasadında vizual ahəng və estetik balans yaradır. İşığın ornamentlər üzərindən süzülməsi nəticəsində yaranan kölgə effektləri məkanın dinamikasını daha da gücləndirir. Nəticədə, bina yalnız funksional bir səhiyyə müəssisəsi kimi deyil, həm də estetik və mədəni dəyər daşıyan memarlıq nümunəsi kimi çıxış edir.

Əcəmi Naxçıvani memarlığında cəfəri şəbəkə sistemi riyazi dəqiqlik, harmonik nizam və dərin simvolik məna ilə seçilən nadir ornamental düşüncə nümunəsi olmuşdur. Bu sistemdə hər bir həndəsi element təsadüfi deyil, müəyyən ölçü, proporsiya və ritm əsasında qurularaq bütöv kompozisiyanın vahidliyini təmin edir. Ornamentlərin təkrarlanan quruluşu həm vizual sabitlik yaradır, həm də memarlıq məkanlarında estetik tarazlıq hissini gücləndirir. Bu ənənənin Naxçıvan Şəhər Poliklinikasının eksteryerində müasir formada tətbiqi isə qədim memarlıq məktəbinin müasir şəhərsalma və tikinti prinsipləri ilə uğurlu sintezinin bariz nümunəsi kimi dəyərləndirilir.

Müasir memarlıq texnologiyaları ilə ənənəvi ornamentalistikanın birləşdirilməsi binanı unikal memarlıq nümunəsinə çevirir. Belə sintez milli memarlığın müasir şəhər mühitinə uğurla inteqrasiyasını təmin edir. Burada tarixi ornamentalistika yalnız dekorativ element kimi deyil, həm də memarlıq kimliyini formalaşdıran əsas ifadə vasitəsi kimi çıxış edir. Belə yanaşma bir tərəfdən milli-mədəni dəyərlərin qorunmasına və onların gələcək nəsillərə ötürülməsinə xidmət edir, digər tərəfdən isə ictimai binaların estetik keyfiyyətini yüksəldərək onlara daha dərin mənəvi məzmun qazandırır. Eyni zamanda bu cür memarlıq həlləri şəhər mühitində ənənə ilə novatorluğun vəhdətini nümayiş etdirərək mədəni davamlılığın və tarixi yaddaşın canlı saxlanılmasına şərait yaradır.

Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında belə incə memarlıq elementlərinin, xüsusilə Əcəmi Naxçıvani ənənələrinə söykənən ornamental həllərin tətbiqi bu məkanın yalnız funksional səhiyyə müəssisəsi kimi deyil, həm də mənəvi və mədəni dəyər daşıyan bir abidə kimi qavranılmasına imkan yaradır. Bu yanaşma görkəmli alim Zərifə Əliyevanın elmi irsinə, yüksək insani keyfiyyətlərinə və Azərbaycan səhiyyəsinin inkişafında tutduğu müstəsna mövqeyə olan ehtiramın rəmzi kimi dəyərləndirilə bilər. Çünki elm, gözəllik və harmoniya anlayışları burada yalnız memarlıq səviyyəsində deyil, həm də ideya və məzmun baxımından vahid bir məkan daxilində birləşərək insan rifahına xidmət edən bütöv bir konsepsiyanı ifadə edir.

Beləliklə, Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası milli memarlıq düşüncəsinin, tarixi estetik ənənələrin və müasir şəhərsalma yanaşmasının vəhdətini özündə yaşadan mühüm mədəni məkan kimi çıxış edir. Bu baxımdan, bina Naxçıvanın müasir memarlıq simasında xüsusi yer tutur. Nəticə etibarilə, bu memarlıq nümunəsi keçmişlə gələcəyin harmoniyasını əks etdirir. Burada tətbiq olunan memarlıq həlləri, xüsusilə Əcəmi Naxçıvani məktəbinə xas ornamentalistika və kompozisiya prinsipləri, Azərbaycan memarlıq irsinin davamlılığını nümayiş etdirir və keçmişlə bu gün arasında estetik körpü yaradır. Eyni zamanda bu cür yanaşma gənc nəsillərdə milli-mədəni irsə marağın artırılmasına, tarixi memarlıq ənənələrinin daha dərindən öyrənilməsinə və qorunmasına xidmət edir. Poliklinika həm funksional səhiyyə mərkəzi, həm də şəhər mühitində mədəni kimliyi ifadə edən memarlıq nümunəsi kimi formalaşaraq Naxçıvanın ümumi memarlıq mənzərəsinə xüsusi dəyər qatır və gələcək nəsillərə ötürüləcək mədəni irsin canlı bir parçasına çevrilir.

**Brilyant CƏFƏRLİ**

***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsinin elmi işçisi***





# Qatqı maddəli qidaların insan orqanizminə təsiri

Müasir dövrdə qida təhlükəsizliyinin təmin edilməsi qlobal miqyasda prioritet problemlərdən biri hesab olunur. Bu istiqamətdə qida məhsullarının çeşidinin genişləndirilməsi ilə yanaşı, onların keyfiyyət göstəricilərinin, qidalılıq və enerji dəyərinin yüksəldilməsi, həmçinin insan sağlamlığına mənfi təsir göstərə bilən amillərin aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir.

Qida təhlükəsizliyinin təmin edilməsində ərzaq məhsullarının istehsal həcminin artırılması, istehsal zamanı və sonrakı mərhələlərdə baş verən itkilərin minimuma endirilməsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, qida məhsullarının bol olduğu mövsümdən azaldığı dövrədək keyfiyyət göstəricilərinin qorunması və saxlama müddətinin uzadılması da prioritetlərdən hesab olunur. Bu baxımdan, qatqı maddələrinin istifadəsi qida məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin qorunması, saxlanma müddətinin uzadılması üçün mühüm texnoloji vasitə kimi qiymətləndirilir.

Qida əlavələri yeni anlayış deyil və onların istifadəsi qədim dövrlərə dayanır. İnsanlar minilliklər boyu qidaların uzun müddət keyfiyyətli saxlanılması üçün duzlama və hisləmə üsullarından geniş istifadə etmişlər. Lakin sonradan qida sənayesinin inkişafı ilə əlaqədar qida məhsullarının keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün məhsullara konservantlar, rəngləyicilər, emulqatorlar və digər inqrediyentlər əlavə edilməyə başlanılmışdır.

Qida əlavələri normal şəraitdə təkbaşına istehlak edilməyən və ya qida xammalı kimi istifadə olunmayan maddələrdir. Belə maddələri qida məhsullarının istehsalı, emalı, qablaşdırılması, daşınması və saxlanması zamanı onların dadını, qoxusunu, görünüşünü, quruluşunu və digər xüsusiyyətlərini qorumaq və ya yaxşılaşdırmaq məqsədilə məhsullara əlavə edirlər.

Müasir dövrdə hazır qida məhsullarının istehlakının artması qatqı maddələrinə marağı daha da artırmışdır. Market rəflərində gördüyümüz məhsulların etiketlərində yer alan E indeksləri qatqı maddələrinin beynəlxalq kodlaşdırılmış adlarıdır.

Aparılan elmi-tədqiqatlar əsasında müəyyən edilmişdir ki, hər bir qatqı maddəsinin təhlükəsizliyi onun miqdarı və istifadə tezliyi ilə bağlıdır. Buna görə də istehlakçıların məhsul etiketlərini diqqətlə oxuması, E indekslərinin mənasını bilməsi və balanslaşdırılmış qidalanmaya üstünlük verməsi sağlam həyat tərzinin vacib şərtlərindən hesab olunur.

Bəs E indeksləri nədir? Qida məhsullarına əlavə edilən qatqı maddələrinin tanınması və bir-birindən fərqləndirilməsi məqsədilə ilk dəfə Avropada xüsusi kodlaşdırma sistemi tətbiq olunmuşdur. Bu sistemdə əlavələrin qarşısında “Europe” mənasını ifadə edən “E” hərfi istifadə edilmiş, sonradan bu təsnifat bir çox ölkələr tərəfindən qəbul edilərək beynəlxalq standart statusu qazanıb.

Qida məhsullarında, qida əlavələrində və qida fermentlərində istifadə edilən qida əlavələrinin funksional sinifləri aşağıdakı qruplara bölünür:

*– Qida rəngləyiciləri – qida məhsullarına rəng vermək və ya rəngini bərpa etmək məqsədilə istifadə olunur;*

*– Qoruyucular – mikroorqanizmlərin, mayaların və kif göbələklərinin inkişafının qarşısını alır, məhsulun xarab olmasını ləngidir və saxlanma müddətini uzadır;*

*– Rəng saxlayıcı agentlər – qida məhsullarının təbii və ya əlavə edilmiş rənginin qorunmasına, qaralmanın və rəng dəyişikliklərinin qarşısının alınmasına xidmət edir;*

*– Emulqatorlar – yağ və su kimi qarışmayan komponentlərin homogen qarışıq əmələ gətirməsinə, məhsulun teksturasının və sabitliyinin qorunmasına xidmət edir;*

*– Dad və aroma gücləndiriciləri – qida məhsullarının mövcud dad və ətrini gücləndirir, dad profilini və orqanoleptik xüsusiyyətlərini yaxşılaşdırır;*

*– Şirinləşdiricilər – qida məhsullarına şirin dad verir, şəkərin miqdarını azaltmağa və ya şəkər əvəzedicisi kimi istifadə olunmağa imkan yaradır;*

*– Sekvestrantlar – metal ionlarını bağlayaraq oksidləşmə proseslərinin, rəng və dad dəyişikliklərinin qarşısını alır, məhsulun sabitliyini və saxlanma müddətini artırır;*

*– Stabilizatorlar – məhsulun fiziki və kimyəvi xüsusiyyətlərini, teksturasını, qatılığını və homogenliyini sabit saxlayır;*

*– Qabardıcılar – xəmir və digər qida məhsullarında qaz əmələ gətirərək məhsulun həcmini artırır, məsaməli quruluş yaradır və teksturanı yaxşılaşdırır;*

*– Un yaxşılaşdırıcılar – unun və xəmirin texnoloji xüsusiyyətlərini, elastikliyini, həcmini, strukturunu və bişirmə keyfiyyətini yaxşılaşdırır;*

*– Qatılaşdırıcılar – məhsulun qatılığını və özlülüyünü artırır, teksturasını yaxşılaşdırır və sabitliyini qoruyur;*

*– Bərkidicilər – məhsulun strukturunu möhkəmləndirir, forma və konsistensiyasını qoruyur, meyvə-tərəvəz məhsullarında toxuma möhkəmliyini saxlayır;*

*– Köpükləndiricilər – maye və ya bərk qida məhsullarında qaz fazasının bərabər və homogen paylanmasını təmin edən maddələrdir;*

*– Köpüklənmə əleyhinə maddələr – istehsal və emal zamanı arzuolunmaz köpüklənmənin qarşısını alır və ya yaranmış köpüyü azaldır;*



*– Həcm artırıcılar – məhsulun həcmini və kütləsini artırır, teksturasını yaxşılaşdırır və lazımi konsistensiyanı yaradır;*

*– Daşıyıcılar – qida məhsuluna qidalandırıcı və ya fizioloji məqsədlərlə əlavə olunan qida əlavələrinin, dad-aromatik maddələrin, qida fermentlərinin, nutriyentlərin və digər maddələrin emalını, tətbiqini və istifadəsini asanlaşdıran maddələrdir;*

*– Yapışma əleyhinə maddələr – qida məhsullarının və toz halında olan komponentlərin bir-birinə yapışmasının, topalaşmasının və avadanlıqlara yapışmasının qarşısını alır;*

*– Parladıcılar – məhsulun səthinə parlaqlıq verir, qoruyucu örtük yaradır və xarici görünüşünü yaxşılaşdırır;*

*– Nəmləndiricilər – məhsulun nəmliyini qoruyur, qurumasının və bərkiməsinin qarşısını alır, teksturasını yumşaq və elastik saxlayır;*

*– Gel əmələ gətirənlər – məhsulda gelvari struktur yaradır, onun konsistensiyasını və formasını sabit saxlayır;*

*– Antioksidantlar – məhsulun oksidləşməsinin, rəng, dad və qoxu dəyişikliklərinin qarşısını alır, saxlanma müddətinin uzadılmasına kömək edir;*

*– Emulsiyalaşdırıcı duzlar – əsasən, emal olunmuş pendir və oxşar məhsullarda yağ və zülalın bərabər qarışmasını təmin edir, məhsulun homogen quruluşunu və konsistensiyasını sabit saxlayır;*

*– Turşuluq tənzimləyiciləri – qida məhsullarında turşuluq səviyyəsini tənzimləyir, pH göstəricisinin sabit saxlanılmasına kömək edir, məhsulun dadına, rənginə, teksturasına və saxlanma müddətinə təsir göstərir.*

Qida əlavələrinin təhlükəsizliyi beynəlxalq səviyyədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının birgə yaratdığı Qida Əlavələri üzrə Ekspert Komitəsi tərəfindən qiymətləndirilir. Komitənin elmi rəyləri və tövsiyələri bir çox ölkələrdə bu maddələrin tənzimlənməsi və risk qiymətləndirilməsi üçün əsas mənbələrdən biri hesab olunur. Komitə qida əlavələrinin toksikoloji xüsusiyyətlərini, insan sağlamlığına mümkün təsirlərini və təhlükəsiz istifadə səviyyələrini müəyyənləşdirir. Bu qiymətləndirmə zamanı qida məhsulu ilə qarşılıqlı təsiri, insan orqanizminə potensial təsirləri və gündəlik qəbul üçün təhlükəsiz hesab edilən maksimum miqdarları araşdırılır. Həmçinin istifadəsinə artıq icazə verilmiş qatqı maddələri mövcud təhlükəsizlik tələblərinə uyğunluğun təmin edilməsi məqsədilə mütəmadi olaraq yenidən qiymətləndirilir.

Əksər qida əlavələri Avropa Qida Təhlükəsizliyi Təşkilatı tərəfindən müəyyən edilmiş normativ hədlər daxilində təhlükəsiz hesab edilsə də, bəzi maddələr həssas insanlarda müəyyən reaksiyalara səbəb ola bilər. Buna misal olaraq aşağıdakıları göstərmək olar:

Ləzzət artırıcı kimi istifadə olunan mononatrium qlütamat – bəzi insanlarda baş ağrısı, üz nahiyəsində qızarma və həssaslıq hissi yarada bilər. Lakin beynəlxalq qurumlar onun normativ hədd daxilində istifadəsini təhlükəsiz hesab edir.

Aspartam – aşağı kalorili intensiv dadlandırıcıdır və əsasən, qazlı içkilər, şəkərsiz saqqızlar, desertlər və digər pəhriz məhsullarında istifadə olunur. Yalnız fenilketonuriya xəstələri tərkibində fenilalanin olduğuna görə aspartam qəbulundan çəkinməlidirlər.

Şokolad və digər qənnadı məhsullarında istifadə olunan soya lesitini – emulqator funksiyası daşıyır və adətən, təhlükəsiz hesab olunur. Lakin soya allergiyası olan bəzi şəxslərdə həssaslıq reaksiyalarına səbəb ola bilər. Beynəlxalq qida təhlükəsizliyi qurumları tərəfindən E322 üçün məqbul gündəlik qəbul miqdarı müəyyən edilməmişdir. Çünki qida məhsullarında texnoloji zərurətə uyğun miqdarda istifadə edildikdə sağlamlıq üçün risk yaratdığına dair kifayət qədər elmi sübut yoxdur.

Sarı rəng verən tartrazin – bəzi insanlarda allergik reaksiyalara və xüsusilə həssas uşaqlarda hiperaktivliyə meyilliliyin artmasına səbəb ola bilər. Buna görə bəzi ölkələrdə onun istifadəsi xüsusi xəbərdarlıqla müşayiət olunur.

Turşuluq tənzimləyicisi olan fosfor turşusu – əsasən, qazlı içkilərdə istifadə olunur. Həddindən artıq istehlakı diş minasının zədələnməsi və mineral balansının pozulması ilə nəticələnir.

Sorbitol şəkər əvəzedicisi kimi istifadə edilir. Çox miqdarda qəbul edildikdə köp, qarın ağrısı və işlədici təsir göstərə bilər. Bu səbəbdən bəzi məhsulların etiketində artıq istehlakın işlədici təsir göstərə biləcəyi qeyd olunur. Beynəlxalq qida təhlükəsizliyi qurumları tərəfindən sorbitol üçün məqbul gündəlik qəbul miqdarı müəyyən edilməmişdir və onun qida məhsullarında texnoloji zərurətə uyğun miqdarda istifadəsi təhlükəsiz hesab edilir.

Mütəxəssislər qeyd edirlər ki, hər hansı qatqı maddəsinin insan orqanizminə təsiri onun növündən, qəbul olunan miqdarından və fərdi həssaslıq səviyyəsindən asılıdır. Bu səbəbdən hər bir qatqı maddəsi üçün təhlükəsiz hesab olunan gündəlik qəbul norması müəyyən edilir.

Qeyd etdiklərimizi nəzərə alaraq məhsul alarkən məhsulun etiketini oxumağı, tərkib hissələri ilə tanış olmağı, qatqı maddələri ilə zəngin məhsulların alınmasından və həmin məhsulların mütəmadi istifadə edilməsindən çəkinməyi tövsiyə edirik. İstifadəsinə icazə verilmiş qatqı maddələri məhsullara çox kiçik miqdarlarda əlavə olunur və texnoloji məqsədlərin yerinə yetirilməsi üçün kifayət edir.

Ölkəmizin qida sənayesində əhalinin sağlamlığının qorunması, istehlakçıların maraq və hüquqlarının müdafiəsi məqsədilə qida əlavələrinin istifadəsi müəyyən olunmuş tələblər və normalar əsasında həyata keçirilir. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 5 mart 2024-cü il tarixli 42 nömrəli Qərarı ilə “Qida əlavələrinə dair sanitariya norma və qaydaları” təsdiq edilmişdir. Qaydalar qida məhsullarında istifadəsinə yol verilən qida əlavələrinin siyahısını, onların qida məhsullarında, qida fermentləri və dad-aromatik maddələrdə istifadə şərtlərini, habelə etiketlənmə tələblərini müəyyən edir.

Beləliklə, E indeksli qatqı maddələri müasir qida sənayesinin ayrılmaz hissəsidir. Onlar məhsulların keyfiyyətinin qorunmasında mühüm rol oynasa da, istehlakçıların bu maddələr barədə məlumatlı olması, etiketləri diqqətlə oxuması və qatqı maddələrinin normadan artıq qəbulundan çəkinməsi sağlam həyat tərzinin vacib şərtlərindəndir.

**Aynurə QULAMOVA**
***“Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxsin Elmi araşdırmalar, risk analizi və təlim şöbəsinin müdiri***

# “Qayıdış” konsepsiyası:

## tarixi irsə sahiblik və gələcəyə böyük inamla

*Vətən müharibəsində qazanılan tarixi Zəfər təkcə işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələnmədi, həm də ermənilərin uzun illər bəslədiyi əsassız iddialara qətiyyətli cavab oldu. Düşmənin 30 il ərzində yaratdığı “məğlubedilməz Ohanyan səddi” Milli Ordumuz tərəfindən əks-hücum əməliyyatının ilk günündə yarıldı, mifə çevrilmiş bu istehkam mənfur ideyalar kimi darmadağın edildi. Cəmi 44 gün ərzində Azərbaycan Ordusu öz gücünü, xalqımızın iradəsini və torpaqlarını hər vasitə ilə qorumaq əzmini bütün dünyaya nümayiş edirdi. Azərbaycan dövlətinin gücü qarşısında duruş gətirə bilməyən Ermənistan kapitulyasiya aktına imza atdı. Beləliklə, haqq-ədalət zəfər çaldı, işğaldan azad olunan torpaqlarda dərhal başlanan “Böyük Qayıdış” proqramı Qarabağın sürətli dirçəlişinin əsasını qoydu. İyulun 11-də Xocavənd rayonunun Quzeyxırman kəndində sakinlərlə görüşən ölkə başçısı deyib: “Son 5-6 il ərzində xalqımız qürur hissi ilə yaşayır, haqlı olaraq. Biz bütün dünyaya göstərdik ki, böyük xalqıq, öz dədə-baba ənənələrimizə sadiqik. Baxmayaraq ki, uzun illər torpaqlarımız işğal altında idi, insanlarımızın böyük hissəsi qaçqın-köçkün şəraitində yaşayırdı, ancaq bizim iradəmiz sınmadı. İnanırdıq və nəinki inanırdıq, bilirdik ki, gün gələcək və biz bu torpaqların sahibləri kimi qayıdacağıq”.*

### Tarixi faktların dili ilə

Son iki əsrdə xalqımızın üzləşdiyi faciələr Qərbi Azərbaycanda yaşayan soydaşlarımızdan da yan keçməyib. Onlar xüsusilə 1905-1906, 1918-1921, 1948-1953, 1987-1991-ci illərdə sistemli şəkildə öz doğma torpaqlarından deportasiya olunublar. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində, təxminən, 300 min nəfər soydaşımız və onların yüz minlərlə övladı hələ də qaçqın taleyi yaşamaqdadır. Qərbi Azərbaycanda yerli əhali olan azərbaycanlıların doğma torpaqlarından çıxarılması dövlət səviyyəsində həyata keçirilmiş zorakılıq, kütləvi qırğınlar, insan hüquqlarının kobud şəkildə pozulması və insanlığa qarşı cinayətlərlə müşayiət olunub. Bu cür cinayətlər yalnız insanlara qarşı deyil, həm də xalqımızın tarixi-mədəni irsinə yönəlib. Azərbaycanlılara məxsus yaşayış məntəqələri, mədəniyyət və dini abidələr, qəbiristanlıqlar sistemli şəkildə məhv edilib. Tarixi faktlar və rəsmi sənədlər də sübut edir ki, XIX əsrin əvvəllərində Cənubi Qafqaza köçürülən ermənilərin bu ərazilərin daha qədim tarixi-mədəni irsinə iddia irəli sürməsi heç bir tarixi əsasa söykənmir.

Vətən müharibəsində qazanılan zəfərin yaratdığı reallıqlar fonunda görülən işlər sırasında həm də qərbi azərbaycanlıların öz doğma atababa yurdlarına qayıdışı, tarixi ədalətin bərpası dayanır. Ölkə başçısı İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə səsləndirdiyi mühüm fikirlər “Qayıdış” konsepsiyasının əsas ideya istiqamətini müəyyənləşdirib. Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın öz doğma yurdlarına təhlükəsiz, ləyaqətli və davamlı şəkildə qayıdışı regionda uzunmüddətli sülhün və qarşılıqlı etimadın formalaşmasına xidmət edir. Doğma torpaqlara qayıdış təkcə insanların öz evlərinə dönməsi deyil, həm də xalqın tarixi yaddaşının, milli kimliyinin və mənəvi dəyərlərinin bərpasıdır. Qərbi Azərbaycan İcması həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərir. Bu günə qədər müxtəlif beynəlxalq təşkilatlara və onların rəhbərlərinə, ümumilikdə, 120 məktub ünvanlanıb, icmanın 11 sənədi BMT-nin Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədləri kimi yayılıb. Asiya Parlament Assambleyası, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, TürkPA və İslam Əməkdaşlıq Təşkilatının Nazirlər Şurası Qərbi Azərbaycan məsələsi ilə bağlı qətnamələr qəbul edərək icmanın mövqeyinə və qayıdış hüququna dəstək ifadə ediblər.

“Qərbi Azərbaycana qayıdış” konsepsiyasının həyata keçirilməsi, təşkilatlanmanın daha da gücləndirilməsi, beynəlxalq təbliğatın genişləndirilməsi, eləcə də keçirilən festivalların tarixi yaddaşın yaşadılmasına, ənənələrin və birliyin qorunmasına xidmət edir. Naxçıvanda keçirilən III “Qərbi Azərbaycana qayıdış” konqres-festivalı da soydaşlarımızın birliyinin, qayıdışa olan inamının bariz göstəricisi idi.

“Qərbi Azərbaycana qayıdış” ideyası yalnız tarixi sənədlərdə və beynəlxalq platformalarda deyil, doğma yurd həsrəti ilə yaşayan insanların yaddaşında da yaşayır. Bu yaddaşın canlı ünvanlarından biri də Kəngərli rayonunun Çalxanqala kəndidir.

### Çalxanqala: qərbi azərbaycanlıların kompakt yaşadığı yurd yeri

Otuz ildən artıqdır ki, Kəngərli rayonunun Çalxanqala kəndi Qərbi Azərbaycandan köçkün düşən soydaşlarımıza qucaq açıb. Dövlətin qayğısı, kəndin münbit torpaqları və zəhmətkeş insanların əzmi burada yeni həyat qurmağa imkan yaradıb. 2000-dən artıq əhalisi olan Çalxanqalanın bəhrəli bağları, güllü-çiçəkli dağları, məhsuldar torpaqları insanların ənənəvi təsərrüfat sahələri ilə məşğul olmasına imkan verir. Təsərrüfat və məişət ənənələrini yaşadan qərbi azərbaycanlılar mədəni irslərini övladlarına əmanət ediblər. Qısa zamanda gün-güzəranlarını qurublar, amma yurd nisgili, vətən həsrətini ovundurmağa bu dağ kəndinin gözəllikləri də yetərli olmayıb. Salman kişinin baxışları hələ də Vedibasar mahalının Şidli kəndinə uzanır. O günləri xatırlayaraq deyir: “Dəmir yolunda işləyirdim. 1988-ci ildə vəziyyət getdikcə gərginləşirdi. Atam deyirdi ki, biz üç dəfə bu kənddən çıxmışıq, ermənilər yenə rahat dayanmayacaq. Bizi məcbur edirdilər ki, burada yaşamaq istəyirsinizsə, soyadınızı dəyişin. Təbii ki, əslimizi danıb belə bir şeyi qəbul etməzdik. Kənddə 360 təsərrüfat vardı. Naxçıvandan maşınlar göndərdilər. Bir günə kənddən çıxdıq. Götürə bildiklərimizi götürdük, qalan çox şeyi əziyyətlə tikdiyimiz evlərimizdə qoyduq. Bir çox ailə Bakıya üz tutdu, biz isə Çalxanqalanı seçdik. Bu kəndin havası, suyu bizə doğma yurdumuzu xatırladır. Qərara aldıq ki, ən yaxşısı elə bu kənddə qalmaqdır. Şidlidə yaxşı bağım-bağatım vardı. Eynilə burada da yaratdım. Şükür, dolanırıq. Amma vətən yaddan çıxmır. Bizim o torpaqlarda ata-babalarımızın ruhu dolanır. Qismət olsa, gedib doğmalarımın məzarını ziyarət edəcəyəm”.





### Vurğunuyam Hasarlının düzünə

Rəhman Tərovev Dərələyəz mahalının Gömür kəndindəndir. Səkkiz il doğma kəndində ibtidai sinif müəllimi kimi çalışıb. Otuz yaşında ailəsi ilə birlikdə Naxçıvana köç edib. Bir müddət Ordubadın Parağa kəndində, daha sonra Çalxanqalada məskunlaşaraq müəllim kimi fəaliyyətini davam etdirib. Dərin bir ah çəkəndən sonra gəncliyini qoyub gəldiyi doğma yurd yerlərini xatırlayır. Deyir Qanlıgölün o biri üzü bizim yurd yerləri idi. Təsərrüfatla məşğul olurduq. Kükündən də gəlirdilər, yaxşı dostlarımız vardı. Yurd həsrəti Rəhman kişini poetik ovqata kökləyir:

*Vurğunuyam Hasarlının düzünə,*
*Təknəlinin şəffaf axan gözünə.*
*Yayın istisində su əvəzinə,*
*Qatığı, ayranı yadıma düşdü.*

“1988-ci ildə kənddən çıxmağa məcbur olduq. Uşaqlardan ikisi körpə idi, qucağımızda gətirdik. Min bir əziyyətlə hasilə gətirdiyimiz evimizdən heç nə götürə bilmədik. Qanlıgölü aşaraq Kükülə keçdik. Kükülülər bizə çox dəstək oldu. Soyuq dekabr günündə bizə qapılarını açdılar. Bu dəstəyi heç vaxt unutmarıq. Unutmadığımız bir də ürəyimizin dərin guşəsində yer alan yurd həsrətidir. Bu həsrət o torpaqlara qovuşanda bitəcək. Bəlkə də, tikib içində çox az yaşadığım evi dağıdıblar, amma mən yenə də gedib oranı görmək istəyərəm, Qara bulaq, Nallı bulaq, Pəri bulağı, Söyüd gölü bulağı. O bulaqların adını çəkdikcə elə bilirəm, suyundan içsəm, ömrümə ömür calanar”.

### Tarixi unutmaq olmaz

Ömrünün 65-ci ilini Çalxanqalada yaşayan Ramiz Cəfərov 27 yaşında Dərələyəz mahalının Ələyəz kəndindən çıxıb. O günləri belə xatırlayır: “Bizi 23 gün mühasirədə saxladılar. Müqavimət göstərsək də, onlar silahlı idi. 1988-ci il noyabrın 23-də kəndi atəşə tutdular, 14 ev tamamilə yandı. Bir neçə gün dağlara çəkildik, sonra yenidən evimizə qayıtdıq. Yurdumuzu tərk etmək istəmirdik. Noyabrın 30-u bizi yük maşınlarına mindirib Buzqov istiqamətinə aparacaqlarını dedilər. Herher kəndi yaxınlığında yanacaq daşıyan maşını görəndə niyyətlərinin bizi sağ buraxmamaq olduğunu anladıq. Həmin vaxt Naxçıvandan kömək gəlməsəydi, bəlkə də, faciə qaçılmaz olacaqdı. Guya öz aləmlərində bizdən Sumqayıt hadisələrinin heyfini çıxırdılar. Halbuki hər kəsə bəllidir ermənilərin fitnəsi ilə baş verən Sumqayıt hadisələri. Naxçıvana çatanda gecə idi. Bizi yataqxanalarda, xəstəxanalarda yerləşdirdilər. O günləri yazmaq, gələcək nəsillərə çatdırmaq lazımdır. Tarixi unutmaq olmaz”.

Ramiz kişi doğulduğu yurd haqqında danışarkən deyir: “Arpaçayın mənbəyi bizim kənddən 14 km yuxarıdan başlayırdı. Kəndimiz Ordubadın çay kənarında yerləşən kəndlərinə bənzəyir. Tarixi Salsal qalası bu ərazidədir. Sonra öyrəndik ki, adını dəyişib Sumbat qalası qoyublar. Amma tarixin canlı şahidləri bizik. Necə ki Şuşanın da adını dəyişmək istəyirdilər, amma bacarmadılar. Tarixi ədalət bərpa olundu. Biz də inanırıq ki, bir gün doğma yurdumuza qayıdacağıq”.

Əhməd Məmmədov Keşişkənd rayonunun Gədikvəng kəndini 35 yaşında tərk etməyə məcbur olub: “Bizim kənddə bir nəfər də olsun, erməni yaşamırdı. 1988-ci ilin iyununda bir ay yollar bağlı qaldı, vəziyyət getdikcə gərginləşirdi. Həmin il oktyabrın 2-də beş övladım və yoldaşımla kənddən çıxdıq. Təxminən, 14-15 ailə Kəlbəcər istiqamətinə yollandı, biz Yuxarı Yaycı yolu ilə Naxçıvana gəldik. Qardaşım Arif kəndin icra nümayəndəsi idi. Kəndi ən son tərk edən də o oldu. Bu gün həmin kənddə yaşayış yoxdur”.

### Qoca tarix ədalətə qovuşmaq üçün bəzən tələsmir, amma...

Hümbət İbrahimov doğulduğu Zeytə kəndini xatırladıqca kövrəlir: “Kəndimizin ətrafında üç qəbiristanlıq vardı. Və onların heç birində erməni qəbri yox idi. Ermənilər hətta əski Azərbaycan əlifbası ilə yazılan köhnə qəbirləri də mənimsəmək istəyirdilər. Atam onlardan yazıları oxumağı istədi, heç biri oxuya bilmədi. Kəndimizin ətrafındakı 7 yaşayış məntəqəsi xaraba qalmışdı. Qurbankəsilən, Qurdqulaq, Cığatay və digər kəndlərin əhalisi Stalinin vaxtında köçürülmüşdü. O kəndlərdən çıxanların əksəriyyəti Naxçıvana gəlmişdi. Şıxmahmudda, Nəzərabadda, Badamlıda, Siyaqutda məskunlaşmışdılar. Bizim kəndi də o vaxt sürgün etmişdilər. Lakin əhali gedib iqlimə uyğunlaşa bilmədiyi üçün yenidən öz yurduna qayıtmış, hətta 4 kəndin əhalisi bizim Zeytə kəndində gəlib məskunlaşmışdı. Qoca nənəm vardı, deyirdi, bizi dəfələrlə kənddən çıxarıblar. Amma yenə də qayıtmışıq. Bizim köç 1989-cu il dekabrın 5-i kənddən çıxdı. Amma qayıdışa böyük ümidimiz var. O inamla yaşayırıq”.

Qoca tarix bəzən ədalətə qovuşmaq üçün tələsmir, amma gerçəkləri öz sinəsində qoruyur. İnsanlar isə həmin həqiqətləri ürəklərində nəsildən-nəslə ötürürlər. Çalxanqaladan ayrılarkən yurd nisgili ilə dünyadan köçsə də, sazı və sözü ilə yaddaşlarda yaşayan aşıq Kamil Teymuroğlunu da ehtiramla yad edirik:



*Göyçədən qalxanda Səlim Gədiyə,*
*Göz gəzdir qocaman Karvansaraya.*
*Qabaxlı, Ələyəz, Qara Qayaya,*
*Qalasərə, Qızılgülə baxasan.*

Bu misralar doğma yurda qayıdış arzusu ilə yaşayan qərbi azərbaycanlıların yaddaşını, mənəvi bağlılığını və sarsılmaz ümidini ifadə edir. Tarixi yaddaşı yaşadan da məhz bu inamdır. Necə ki Qarabağ zəfəri illərlə yaşadılan arzunu gerçəyə çevirdi, “Qərbi Azərbaycana qayıdış” ideyası da xalqımızın milli yaddaşında və dövlətimizin siyasi iradəsində öz möhkəm yerini qoruyur.

Ruhiyyə RƏSULOVA



# Doğru ixtisas seçimi uğurlu gələcəyin başlanğıcıdır

**İxtisas seçimi ali təhsil yolunda ən vacib mərhələlərdən biridir. Məhz bu mərhələdə verilən qərar gəncin gələcək peşə fəaliyyətinə, karyera imkanlarına və əmək bazarında tutacağı yerə birbaşa təsir göstərir. Buna baxmayaraq, hər il minlərlə abituriyent seçim zamanı əvvəlki illərin keçid ballarını əsas tutaraq ixtisaslarin gələcək perspektivini, əmək bazarının tələbatını və qəbul planındakı dəyişiklikləri nəzərə almır. Halbuki düzgün ixtisas seçimi təkcə universitetə qəbul olmaq deyil, həm də gələcək peşə həyatının möhkəm təməlini formalaşdırmaq deməkdir. Bəs abituriyentlər ixtisas seçərkən hansı məqamlara diqqət yetirməlidirlər? Builki qəbul prosesində subbakalavrları hansı yeniliklər gözləyir? Bu suallara aydınlıq gətirmək üçün təhsil ekspertləri Orxan İsayev və Tusi Həsənlinin fikirlərinə müraciət etdik.**

Ekspertlərin fikrincə, abituriyentlərin yol verdiyi ən böyük səhvlərdən biri seçim zamanı əvvəlki illərin keçid ballarını əsas meyar kimi qəbul etmələridir. Orxan İsayev bildirir ki, hər il qəbul planı və ixtisaslar üzrə ayrılan yerlərin sayı dəyişdiyi üçün keçid balları da fərqli formalaşır. Bu səbəbdən yalnız ötən ilin nəticələrinə əsaslanmaq düzgün yanaşma deyil. Tusi Həsənli isə qeyd edir ki, namizədlər cari ilin qəbul planını, bal intervallarını və statistik göstəriciləri diqqətlə təhlil etməli, seçimlərini real vəziyyətə uyğun qurmalıdırlar.

Ekspertlər vurğulayırlar ki, ixtisas seçimi yalnız yüksək keçid balına əsaslanmamalıdır. Seçim zamanı gələcək perspektivlər, əmək bazarının tələbləri, eləcə də gəncin şəxsi maraq və bacarıqları nəzərə alınmalıdır. Onların fikrincə, dövlət sifarişli ixtisasların mövcudluğu həmin sahələrin ölkənin inkişaf strategiyasında əhəmiyyət daşıdığını göstərir. Bunun-la yanaşı, hər bir abituriyent seçdiyi ixtisasın öz potensialına uyğun olub-olmadığını düzgün qiymətləndirməlidir. Ekspertlər müasir dövrdə informasiya texnologiyaları, süni intellekt, logistika, tibb və kənd təsərrüfatı kimi sahələrin əmək bazarında daha perspektivli istiqamətlər sırasında olduğunu qeyd edirlər. Onların fikrincə, seçim zamanı əsas sual "Bu ixtisas populyardırmı?" deyil, "Məzun olduqdan sonra bu sahəyə tələbat olacaqmı?" olmalıdır.

Mütəxəssislər yüksək keçid ballı ixtisasların hər zaman uğurlu karyera vəd etmədiyini də diqqətə çatdırır. Orxan İsayev qeyd edir




ki, bəzi ixtisaslar illərdir, ənənəvi olaraq yüksək bal toplayan abituriyentlər tərəfindən seçilsə də, onların əmək bazarındakı real vəziyyəti kifayət qədər araşdırılmır. Tusi Həsənli isə abituriyentlərə yalnız yüksək ballı ixtisasları deyil, orta və nisbətən aşağı keçid ballı alternativləri də seçim siyahısına daxil etməyi tövsiyə edir. Bu yanaşma qəbul şansını artırmaqla yanaşı, daha düşünülmüş qərar verməyə imkan yaradır.

Valideynlərin ixtisas seçimində rolu da ekspertlərin toxunduğu mövzulardandır. Onların fikrincə, valideyn övladına istiqamət göstərməli, lakin son qərarı onun əvəzinə verməməlidir. Valideynin müasir təhsil sistemi və əmək bazarı barədə dolğun məlumatı varsa, tövsiyələri faydalı ola bilər. Əks halda şəxsi istəklər və ya eşitdiyi məlumatlar əsasında övladını müəyyən ixtisasa yönləndirməsi gələcəkdə yanlış seçimə səbəb ola bilər.

Bu il subbakalavrların ali təhsil müəssisələrinə qəbul imkanları da ekspertlərin diqqət çəkdiyi əsas məsələlərdəndir. Orxan İsayevin sözlərinə görə, müsabiqə şərti 150 bal olan ixtisasların sayının artırılması nəticəsində əvvəlki illərdə boş qalan yerlərin əksəriyyəti artıq abituriyentlər tərəfindən tutulacaq. Bu isə subbakalavrlar üçün vakant yerlərin sayını azaldacaq və onların qəbul şansını aşağı salacaq. Tusi Həsənli bildirir ki, subbakalavrların qəbulu yalnız abituriyentlərin seçimindən sonra boş qalan yerlər üzrə aparıldığı üçün builki dəyişikliklər bu kateqoriyadan olan namizədlər üçün rəqabəti daha da gücləndirəcək. Xüsusilə maliyyə, informasiya texnologiyaları və mühəndislik istiqamətlərində qəbulun əvvəlki illərlə müqayisədə daha çətin olacağı gözlənilir.

Onlar hesab edirlər ki, subbakalavrların öz ixtisasları üzrə ali təhsillərini davam etdirmələri daha məqsədəuyğundur. Çünki kollecdə əldə olunan baza biliklərinin universitetdə inkişaf etdirilməsi tamamilə yeni istiqamətə keçməkdən daha səmərəli nəticə verir.

Müsahibə zamanı Tusi Həsənli peşə təhsilinin inkişaf perspektivləri mövzusuna toxunaraq bildirdi ki, yüksək peşə təhsili səviyyəsini bitirən məzunlar subbakalavr statusu əldə etsələr də, bu, ali təhsil müəssisələrinə qəbul zamanı onlara əlavə hüquqi üstünlük qazandırmır. Universitetlərin nəzdində fəaliyyət göstərən peşə məktəbləri və kolleclər də qəbul prosesində imtiyaz yaratmır. Bununla belə bu müəssisələr tələbələrin daha güclü akademik mühitdə təhsil almalarına və praktiki bacarıqlarını inkişaf




etdirmələrinə şərait yaradır. Ekspertin fikrincə, peşə təhsili əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr hazırlığında mühüm rol oynayır. Bu sahəyə marağın artırılması üçün gənclər arasında maarifləndirmə gücləndirilməli, əmək bazarının tələblərinə uyğun yeni peşə istiqamətləri yaradılmalıdır. O hesab edir ki, əsas məqsəd yalnız universitet diplomu əldə etmək deyil, rəqabətqabiliyyətli və peşəkar mütəxəssis kimi formalaşmaqdır.

Sonda ekspertlər bildirirlər ki, düzgün ixtisas seçimi gələcək uğurun əsas şərtlərindən biridir. Bu seçim yalnız keçid balına və ya ixtisasın populyarlığına əsaslanmamalı, şəxsi maraq, bacarıq, əmək bazarının tələbləri və gələcək perspektivlər birlikdə qiymətləndirilməlidir.

**Zəhra VƏLİYEVA**

# Milli poeziyamızın dəyərli irsinə yeni baxış: Hüseyn Razinin "Seçilmiş əsərləri"




Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair-dramaturq Hüseyn Razinin müxtəlif yaradıcılıq nümunələrinin toplandığı "Seçilmiş əsərləri" adlı yeni nəşr işıq üzü görüb. 335 səhifədən ibarət kitabda müəllifin müxtəlif illərdə qələmə aldığı seçmə şeirlər, "Odlu diyar" pyesi, xatirələri və onun haqqında tanınmış ziyalıların fikirləri bir araya gətirilib.

Şairin oğlu, filoloq-jurnalist Əli Rzayevin redaktorluğu ilə nəşr olunan bu toplu təkcə Hüseyn Razinin əsərlərini bir araya gətirmir, həm də XX əsr Azərbaycan poeziyasının mühüm bir mərhələsini əks etdirən qiymətli mənbə kimi diqqəti cəlb edir. Kitabın üz qabığında şairin doğulduğu Ordubad rayonunun Dəstə kəndindən görünən Kəmki dağının mənzərəsi təsvir olunub. İlk səhifələrdən etibarən oxucu Hüseyn Razinin həyat və yaradıcılığına aparan mənəvi bir yolçuluğa çıxır.

Müəllifin "Xatirə dəftərindən" bölməsində uşaqlıq illəri, Dəstə kəndi, Araz sahilləri, müharibə dövrü və həyat yolunun müxtəlif mərhələləri səmimi dillə qələmə alınıb. Bu xatirələr şairin yaradıcılıq dünyasının formalaşmasını anlamaq baxımından mühüm əhəmiyyət daşıyır.

Topludan aydın görünür ki, Hüseyn Razi ömrünün mühüm hissəsini doğma Naxçıvana bağlamış, yaradıcılığında bu qədim diyarın təbiətini, tarixini, insanlarını və milli-mənəvi dəyərlərini böyük sevgi ilə tərənnüm etmişdir. Onun poeziyasında Əlincə qalası, Batabat yaylaqları və bütövlükdə, Azərbaycan torpağı canlı poetik obrazlara çevrilir. Məhz bu xüsusiyyət Hüseyn Razi yaradıcılığını regional çərçivədən çıxararaq ümummilli ədəbi dəyər səviyyəsinə yüksəldir.

Kitabda müəllifin müxtəlif mövzuları əhatə edən çoxsaylı şeirləri yer alıb. "Vətən eşqi", "Torpaq", "Bu yerlər", "Əlincə qayaları", "Sevgi", "Bahar" kimi nümunələrdə vətənpərvərlik, torpağa bağlılıq, zəhmətə ehtiram, insan sevgisi və milli kimlik yüksək poetik dillə ifadə olunur. "Qarabağdadır", "Qardaş", "Kül olmaz" kimi şeirlər isə xalqımızın taleyi, azadlıq arzusu və milli həmrəylik duyğularını güclü emosional təsirlə əks etdirir. Bu nümunələr Hüseyn Razinin yalnız lirik şair deyil, həm də dövrünün ictimai-siyasi hadisələrinə həssas münasibət bəsləyən, milli mövqeyi ilə seçilən sənətkar olduğunu göstərir.

Şair 1966-cı ildə qələmə aldığı "Ömür" şeirində yazırdı:

*Nimdaş paltar kimi sökülür ömür,*
*Astarı bir yana, üzü bir yana.*
*Əməllər xəlbirdən keçib ölçülür,*
*Əyrisi bir yana, düzü bir yana.*

Nəşrin diqqətçəkən bölmələrindən biri də "Müasirləri Hüseyn Razi haqqında" başlığı altında təqdim olunan yazılardır. Burada Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Mirzə İbrahimov, İsa Həbibbəyli, Nəriman Həsənzadə, Yavuz Axundlu, Rüstəm Behrudi və digər tanınmış ədəbiyyat xadimlərinin şair haqqında yüksək fikirləri yer alıb.

Kitabın maraqdoğuran bölmələrindən biri də şairin övladlarının qələmə aldıqları xatirələrdir. Bu yazılarda Hüseyn Razinin yalnız sənətkar kimi deyil, həm də prinsipial, bütöv şəxsiyyət, zəngin mütaliəyə malik ziyalı və qayğıkeş ailə başçısı kimi obrazı yaradılır.

Bu kitab yalnız poeziya həvəskarları üçün deyil, həm də Azərbaycan ədəbiyyatının, XX əsr Naxçıvan ədəbi mühitini və milli-mənəvi dəyərlərimizi araşdıran tədqiqatçılar üçün dəyərli mənbədir. Hüseyn Razinin "Seçilmiş əsərləri" şairin zəngin irsinin daha geniş oxucu auditoriyasına çatdırılması və gələcək elmi araşdırmalar üçün etibarlı mənbə kimi xüsusi əhəmiyyət daşıyır.

**Əli CABBAROV**

## Elanlar

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 8 iyul 2026-cı il tarixli 24 nömrəli Qərarına əsasən "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxs ləğv edilmişdir. Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 45 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər: Ləğvedici: Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

***Ünvan: Heydər Əliyev prospekti, $42^{A}$, əlaqə telefonu: (+99436) 550-13-96***
***E-mail: aasmn.nmr@sosial.gov.az***

***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 26 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 61.1-ci maddəsinin tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti barədə məlumat elan olunur.

Kreditorlar Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinə qarşı öz tələblərini elan dərc edildiyi gündən 45 gün müddətində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə – AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21 ünvanına təqdim edə bilərlər.

Ləğvedici: Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi.

***Ünvan: AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21***
***Əlaqə telefonu: (036) 550-33-33 E-mail: info@nmaliyye.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200878081) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200746511) ilə birləşmə yolu ilə yenidən təşkil olunduğunu elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 40 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, AZ7000***
***Telefon: (+99436) 550-53-81, E-mail: info@nits.gov.az***

***

Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsi Naxçıvan şəhərində keçirilən səyyar qəbullar zamanı vətəndaşlar tərəfindən səsləndirilən müraciətlər, həmçinin Naxçıvan Şəhər İcra Hakimiyyətinə daxil olmuş şifahi və yazılı müraciətlər əsasında şəhərin bəzi küçələrində yerləşən bordürlərin, hasar və divarların bir hissəsinin boya örtüyünün yenilənməsi məqsədilə müsabiqə elan edir. Müsabiqədə iştirak etmək istəyən şirkətlər 07.08.2026-cı il tarixdən 14.08.2026-cı il tarixədək Naxçıvan şəhəri, Naxçıvan bələdiyyəsinə müraciət edə bilərlər.

***Ünvan: Kazım Talıblı küçəsi, ev 20, Tel: 050-633-21-01***

## İtmişdir

Babək rayonu, Nəzərabad kəndində yaşamış Mehralıyev Şahin Haqverdi oğluna məxsus JN-263 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış Əliyev Qulu Qafar oğluna məxsus Culfa rayonu, Yaycı kəndində yerləşən JN-$426^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kəndində yaşamış Həsənov Vəli Məhəmməd oğluna məxsus olan JN-$150^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kənd sakini İsmayılov Camal Sultan oğlunun adına verilmiş JN-$503^{A}$ inventar nömrəli, 10207028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi 3/39 ünvanında Həşimov Qurban Şəkər oğlunun adına olan evin 10245 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Qəribov Tofiq Yusif oğlunun adına olan JN-$222^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Səfərova Zərifə Fazil qızının adına olan Naxçıvan şəhəri, Atabəylər məhəlləsi, bina 9, mənzil 17-yə məxsus evin 7327 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində Həsənova Səriyyə Nəbi qızı və ailə üzvlərinin adına olan JN-$090^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Həsənov Fikrət Quşdan oğlunun adına olan 15.07.2014-cü ildə verilmiş AA-009294 seriya nömrəli torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

***

"Ayla Baby İnkişaf Mərkəzi" MMC-yə məxsus JN-163/2024 qeydiyyat nömrəli, 10 dekabr 2024-cü il tarixdə verilmiş lisenziya itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 6, ev 20 ünvanında Məmmədov İbrahim Vəli oğlunun adına olan 783 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Məmmədova Vasilə Abbasəli qızının adına olan JN-$2310^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Xıdırov Allahverdi Zülfüqar oğlunun adına olan 103013002208 reyestr nömrəli, AA-003850 seriya nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Calalov Calal Qəhrəman oğlunun adına olan $303^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Mikayıl Müşfiq küçəsi, bina 16, mənzil 9 ünvanında Əliyeva Roza Həsən qızına məxsus 102011000049-05101093006 reyestr nömrəli mənzilin texniki pasportu itdiyindən etbarsız sayılır.

***

Şərur rayonu, Aşağı Aralıq kəndində yaşamış Mahmudova Telli Cəlal qızına məxsus JN-200 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu Mahmudkənd sakini Əliyev Nadir Ələsgər oğluna məxsus JN-$446^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində yaşamış Mustafayev Allahverən Gülmalı oğluna məxsus JN-$605^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində yaşamış Təhməzov Tofiq Qəhrəman oğluna məxsus JN-$2347^{C}$ nömrəli, 10305018 kodlu 0,29 ha həyətyanı torpaq sahəsinin şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

Elçin Bağırov, Ağa Seyidov və Ramin Qəhrəmanov yaxın dostları Qocayev İlqar Sadıq oğluna anası

**TƏRLAN QOCAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 161

Nömrəyə məsul: Ramiyə Əkbərova, Səmayə Rəsulova
Dizayner: Pərvin Sadiqov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.